www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16-17 iyul 2016-cı il Şənbə № 153 (6474) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda insanlıq rəzaləti; yeni doğulmuş qız uşağı küçəyə atıldı

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycanda Maliyyə Sabitliyi Şurası yaradıldı



Ölkənin makroiqtisadi sabitliyinin daha da möhkəmləndirilməsi və maliyyə dayanıqlığının təmin olunması üçün yaradılan quruma Artur Rəsizadə sədrlik edəcək

yazısı səh.3-də

### ABŞ seçkilərində gözlənilən nəticə: Klintonun şansı yüksəlir

yazısı səh.5-də

### I və IV qruplar üzrə qəbul imtahanının nəticələri yaxın günlərdə elan ediləcək

yazısı səh.3-də

### İŞİD-in Fransada törətdiyi terror aktının şok detalları

yazısı səh.4-də

### Prezidentin torpaq proqramı - kənd təsərrüfatı ölkəsinə çevrilirik?

yazısı səh.5-də

### Ölkədə ən çox korrupsiyaya uğrayan sahə - bank sektoru...

yazısı səh.7-də

### Müxalifət işığın qiymətinin artmasına qarşı aksiya keçirməyəcək

yazısı səh.6-da

### İşğalçı ölkənin qorxduğu əsas sürpriz - Türkiyə amili

yazısı səh.11-də

### Azərbaycan özünü əksər dərmanlarla təmin edə bilər, əgər...

yazısı səh.13-də

### Bakı küləyini elektrik enerjisinə çevirə bilərikmi...

yazısı səh.15-də

### Toy edənlərin sayı azalıb

yazısı səh.15-də

### Dolların məzənnəsi 1,56 manata çatdı

yazısı səh.2-də

## "İşğalçıya qarşı məcbur etmə mexanizmləri hazırlanır"

# KRİTİK GÜZƏŞTLƏR DÖNƏMİ BİTİR - MÜHARİBƏ TƏHLÜKƏSİ YENƏ QAPIDA

Moskvada Kerri-Lavrov danışıqlarında Qarabağ mövzusu ilk dəfə olaraq terrorla mübarizə və Suriya böhranı ilə yanaşı qoyuldu; güc mərkəzlərinin də narahatlığı artır; **rusiyalı nüfuzlu ekspert:** "Müharibədə məğlubiyyət Sərksiyan-Köçəryan klanının sonunun başlanğıcı olacaq..."




yazısı səh.8-də

# Nitsa terrorunun Bakıdakı əks-sədası - təhlükəsizlik tədbirləri gücləndirildi

Məscidlərdə, iri ticarət mərkəzlərində, metro stansiyalarında yoxlama ciddiləşdi; ekspert hamını diqqətli olmağa çağırır

yazısı səh.10-da



### Oqtay Əsədov Rusiyanı işğalçı adlandırdı - politoloqdan dəstək gəldi

yazısı səh.7-də



### Lavrov getdi, Çavuşoğlu gəldi-Qarabağla bağlı böyük proses başlayıb

yazısı səh.9-da



*Hikmət Hacızadə:*

### "Camaat dərddən içir"

yazısı səh.13-də



## Müdafiə Nazirliyi KİV rəhbərlərinə müraciət etdi

**Müdafiə Nazirliyi yerli kütləvi informasiya vasitələrinin (KİV) rəhbərlərinə müraciət edib.**

APA-nin Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, müraciət cəbhəboyu zonada vəziyyətin həssaslığı ilə əlaqədardır.

Nazirlik anonim və qeyri-rəsmi mənbələrdən əldə edilən hərbi məlumatların əksər hallarda araşdırılmadan qeyri-dəqiq formada yayılmasının düşmənin maraqlarına xidmət etdiyini nəzərə alaraq, bu mövzuda xəbərlərin Müdafiə Nazirliyinin rəsmi açıqlaması olmadan və dəqiqləşdirmə aparılmadan ictimailəşdirilməsinin qarşısının alınmasını tövsiyə edir.

## Dolların məzənnəsi 1,56 manata çatdı



**Azərbaycan Mərkəzi Bankı (AMB) iyulun 18-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi iyulun 18-ə 1,56 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5581 manata bərabər olub.**

## Lənkəranda ərazilər saxta sənədlə satılır?

**"Lənkəran rayonu, Bürcəli kənd bələdiyyə sədri Kazım Məmmədov əkinə yararlı sahələri, meşə zolaqlarını, pay torpaqlarına gedən yolları və yolun səki hissələrini saxta sənədlərlə ev adına satır". Bu barədə kənd sakini, 60 yaşlı Heybət Hüseynov redaksiyamıza ünvanladığı məktubunda bildirib. Şikayətçi qeyd edib ki, bu haqda fakt və sübutlarla 2015-ci ilin yanvarından aidiyyəti orqanlara müraciət etsə də rayon səviyyəsində iş ört-basdır edilir:**

"Lənkəran Rayon İcra Hakimiyyəti ümumiyyətlə nə ərizələrə, nə də teleqramlara cavab vermir. Üstəlik hələ məni susdurmağa çalışır. Lənkəran Rayon Prokurorluğu verdiyi saxta qərarı əsas tutaraq heç bir faktı yoxlamır.

İcra Hakimiyyətindən heç bir cavab ala bilmədiyimdən 12 may 2016-cı il tarixində kəndimizin bələdiyyə və icra nümayəndəliyin illik hesabatı zamanı icra başçısı T.Qaraşovdan buna cavab istədim. Nəticədə o, camaatın qarşısında mənə hədə-qorxu gələrək ailə üzvlərimə və ya özümə şər atıb həbsxanaya, ömürlük şikəst edib xəstəxanaya və yaxud birbaşa qəbiristanlığa göndərməklə hədələdi.

Səsimi və faktiki vəziyyəti aidiyyəti orqanlara çatdırmaq üçün sizdən çox xahiş edirəm, köməkliyinizi əsirgəməyin".

Yazıda adı keçən qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ **Xalidə GƏRAY**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Sankt-Peterburq görüşündən sonra ermənilər atəşkəsi 300 dəfə pozub

### Aprel döyüşlərindən sonra Azərbaycan iki şəhid verib

**Sankt-Peterburqda iyulun 20-də Rusiya, Azərbaycan və Ermənistan prezidentləri Vladimir Putin, İlham Əliyev və Serj Sarqsyan arasında keçirilən üçtərəfli görüşdən sonra erməni silahlı bölmələri atəşkəs rejimini 300 dəfə pozub.**



"Report" xəbər verir ki, atəşkəs ən çox Qazax, Tərtər, Ağdam, Füzuli və Xocavənd rayonları istiqamətində yerləşən qoşunların qarşıdurma xəttində pozulub.

Bu müddət ərzində Azərbaycan ordusunun iki hərbi qulluqçusu şəhid olub. İyulun 5-də Azərbaycan-Ermənistan dövlət sərhədində .Ermənistan tərəfinin snayper atəşi nəticəsində Azərbaycan ordusunun hərbi qulluqçusu əsgər Əliyev Vüsal Əmir oğlu şəhid olub.

İyulun 14-də axşam saatlarında cəbhə xəttinin Ağdam istiqamətində düşmən tərəfindən açılan snayper atəşi nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu baş leytenant Məmmədov Toğrul Səyyad oğlu şəhid olub.

Müdafiə Nazirliyi bəyan edib ki, düşmən təxribatlarının nəticələrinə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

Qeyd edək ki, iyunun 20-də Sankt-Peterburq şəhərində Rusiyanın dövlət başçısı Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan rəhbəri Serj Sərkisyan arasında üçtərəfli görüş keçirilib. Həmin görüşdə prezidentlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair üçtərəfli görüşləri müntəzəm olaraq davam etdirmək barədə razılığa gəliblər.

## "Türkiyə Atatürkə dönməklə azad olacaq"

**Rusiyanın məşhur politoloqu Aleksandr Duqin Türkiyəyə səfər edib.**

Axar.az türk mətbuatına istinadən xəbər verir ki, Duqin Türkiyəyə Vətən Partiyasının dəvəti ilə gedib.

Türkiyədə hakim və müxalif partiyalardan olan bir sıra siyasətçilərlə görüşdən sonra Duqin jurnalistlər üçün mətbuat konfransı təşkil edib. O, Türkiyə-Rusiya münasibətlərinin pozulmasında ABŞ-ı günahlandırıb:

"Rusiya Suriyada kürd dövləti qurmaq istəmir. Bu, onun strateji maraqlarına ziddir. Əgər Suriyanın ərazi bütövlüyünü qorumaq mümkün olmasa, tezliklə, Rusiya və Türkiyənin ərazi bütövlüyü pozulacaq. Hər iki dövlətin ərazi bütövlüyünə eyni düşmən təhdid yaradır. Bu düşmən hər şeydən öncə ABŞ-ın Yaxın Şərq siyasətidir. Bunun üçün onlar radikal islam anlayışından vasitə kimi istifadə edirlər. ABŞ kürd dövlətinin dərdindədir. Onlar bunu Suriyada qurmaq istəyirlər. Bu proyekt Rusiyanın maraqlarına cavab vermir. Vaşinqton öz müttəfiqlərindən heç birinin ərazi bütövlüyünü təmin etmək iqtidarında deyil. Əksinə, bu ölkələrdə xaos, bölünmə yaşanır. Belə bir ssenari Türkiyə üçün də yazılıb. Ankara Atatürk siyasətinə dönməklə hər şeydən azad olacaq".

**Qeyd edək ki, Duqin "Novorossiya" layihəsinin əsas müəlliflərindən biri hesab edilir. Kremlə yaxınlığı ilə seçilən politoloq Moskvanın sovet dövründəki təsir zonalarını bərpa etmək siyasətinin əsas ideoloqu sayılır. Duqin Rusiya Dumasının spikeri Sergey Narışkinin məsləhətçisi kimi də fəaliyyət göstərir.**



## Ölü at əti satanda tutulublar, amma özlərini günahkar bilmirlər...

**Bakı Ağır Cinayətlər Məhkəməsində qanunsuz ət satışı ilə məşğul olmaqda təqsirləndirilən Sərdar Şahverdiyev, Alıbəy Rzaxanov və Tamerlan Abdullayevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə prokuror ittiham aktını elan edib.

İttiham aktına əsasən, təqsirləndirilən şəxslər Bakıda qanunsuz ət satışı ilə məşğul olmaqda təqsirli bilinərək polis əməkdaşları tərəfindən saxlanılıb. Onlar ölmüş və xəstə iribuynuzlu heyvanları, həmçinim atları kəsərək satmaqda təqsirli bilinirlər. Bundan əlavə onlar spirtli içkilərin standartlara uyğun olmadan, qanunsuz yollarla hazırlamaqda təqsirləndirilirlər.

İttihamdan qeyd edilir ki, Alıbəy Rzaxanov ət kəsimi müəssisəsinin sahibi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, Sərdar Şahverdiyev isə həmin müəssisənin faktiki rəhbəri olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edərək istehlakçıları aldadıblar.

Satış işlərinə nəzarət edən Tamerlan Abdullayevin barəsində isə həbs-qətimkan tədbiri seçilməyib. Lakin o da təqsirləndirilən şəxs qismində məhkəmə zalında olub.

Təqsirləndirilən hər 3 şəxs ittiham aktında göstərilənlərlə özlərini təqsirli bilmədiklərini deyiblər.

S.Şahverdiyev və A.Rzaxanov Cinayət Məcəlləsinin 200.2.2-ci (istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 200.2.3-ci (istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma, külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, bu məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun nəticələrinə təsir məqsədilə törədildikdə) maddələri ilə ittiham olunurlar.

❑ **İlkin MURADOV**

## Terrorda on uşaq və bir yeniyetmə həlak olub

**Paris prokurorluğundan dəhşətli terrorla bağlı açıqlama verilib. Musavat.com xarici mətbuata istinadən xəbər verir ki, Paris prokuroru Fransua Molan Nitsa şəhərində mətbuat konfransı keçirib. Prokuror hadisə zamanı 10 uşağın və bir yeniyetmənin də həlak olduğunu bildirib.**

Qeyd edək ki, terror aktı nəticəsində son rəqəmlərə görə, 84 nəfər həyatını itirib.

❑ **Aygün SƏFƏRLİ**



## Uorlik: "Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü qısa zamanda təşkil etməyə çalışırıq"

**ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü ən qısa zamanda təşkil etməyə çalışırlar.**

APA-nın xəbərinə görə, bunu amerikalı həmsədr Ceyms Uorlik "RİA Novosti" agentliyinə açıqlamasında bildirib. "Baxmayaraq ki, Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün tarixi hələ müəyyən edilməyib, həmsədr ölkələr ABŞ, Rusiya və Fransa bu görüşü mümkün qədər tez təşkil etməyə çalışırlar".

Qeyd edək ki, Ermənistan və Azərbaycan prezidentlərinin sonuncu görüşü iyunun 20-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilib.

## Diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin maaşları təsdiqlənib

**Nazirlər Kabineti dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiqlənməsi haqqında qərar qəbul edib.**

Nazirlər Kabinetindən APA-ya verilən xəbərə görə, baş nazir Artur Rasizadənin imzaladığı qərara əsasən, müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan dövlət ümumi təhsil müəssisələrinin direktorlarının aylıq vəzifə maaşı Nazirlər Kabinetinin qərarına 1 nömrəli əlavə - "Dövlət büdcəsindən maliyyələşdirilən müəssisələrdə (Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan və Gəncə bölmələrinin tabeliyində olan elm və elmi tədqiqat müəssisələri istisna olmaqla) çalışan işçilərin əməyinin ödənilməsinin Vahid Tarif Cədvəli"nin 18-ci dərəcəsinə uyğun olaraq 486 manat, direktor müavinlərinin aylıq vəzifə maaşı isə 435 manat müəyyənləşib.

## Rusiya Krıma yeni S-400-lər göndərir

**Rusiya Krıma yeni S-400 zenit raket sistemləri yerləşdirəcək. Axar.az xəbər verir ki, bu barədə informasiyanı Rusiya Müdafiə Nazirliyi yayıb.**

Zenit raket kompleksləri avqustda Krıma göndəriləcək. Onlar Feodosiyada yerləşdiriləcək.

Qeyd edək ki, ABŞ-ın bundan öncə Rumıniyada raketdən müdafiə sistemləri yerləşdirməsi Moskvanın etirazına səbəb olub. O zaman Moskva Vaşinqtonun bu addımına adekvat cavab verəcəyini açıqlamışdı.

YENİ MÜSAVAT
N 153 (6474) 16 iyul 2016



# I və IV qruplar üzrə qəbul imtahanının nəticələri yaxın günlərdə elan ediləcək

## Bəzi imtahanların pullu olması ilə bağlı Tarif Şurasına müraciət olunacaq; ali məktəblərə qəbul olmaq istəyən abituriyentlər üçün keçid balları açıqlanıb

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) iyul ayının 15-də 2016/2017-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olmaq istəyən cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. TQDK-dan APA-ya verilən məlumata görə, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə 47 binada aparılıb.**

İmtahan prosesinin idarə olunması üçün TQDK-da operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bəzi abituriyentlər sənədlərini gətirmədikləri üçün imtahana buraxılmayıblar.

TQDK növbəti imtahanda iştirak edəcək abituriyentlərə xatırladıb ki, imtahanda "İmtahana buraxılış vərəqəsi", şəxsiyyəti təsdiq edən sənədin əsli, 16 yaşı 2016-cı il iyunun 1-dək tamam olmayan şagirdlər, digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayış *(arayışa şagirdin 3x4 sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir)* tələb olunur.

İmtahana köməkçi vasitələr, o cümlədən mobil telefon gətirən, imtahanın gedişi zamanı köçürməyə cəhd edən, imtahan qaydalarına zidd hərəkətlərə yol verən abituriyentlər imtahandan xaric olunub və nəticələri ləğv edilib.

İmtahanda istifadə olunmuş test tapşırıqlarının düzgün cavabları TQDK-nın internet saytında və facebook ttp://apa.az/tag/Facebook səhifəsində yerləşdiriləcək. İyulun 16-dan etibarən Komissiyada imtahan protokollarının və cavab kartlarının emalı aparılacaq. Nəticələrin yaxın günlərdə elan edilməsi nəzərdə tutulur.

Azərbaycanda bəzi imtahanların pullu olması ilə bağlı Tarif Şurasına müraciət ediləcək.

APA-nın xəbərinə görə, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə iyulun 15-də keçirilən mətbuat konfransında bildirib ki, müraciətdə komissiya tərəfindən aparılan araşdırmaların nəticəsi və bu məsələ ilə bağlı təkliflər təqdim olunacaq: "Sonda hansı qərarın qəbul ediləcəyi bizdən asılı deyil.



Hazırda TQDK-nın işçiləri dövlət qulluqçularının aldığı maaşı alırdılar. Amma Dövlət İmtahan Mərkəzi qeydiyyata düşdükdən sonra heç bir işçinin, mütəxəssisin maaşı olmayacaq. İmtahanların pullu olması isə iştirakçılarının sayına təsir göstərməyəcək. Sosial ədalət nəzərə alınmaqla müəyyən təbəqələrə imtahanda iştirak etmək üçün ayrı qiymətlər olacaq. İmtahanın növlərindən asılı olaraq imtahanların pulu da fərqlənəcək. Bu ilin sonuna qədər TQDK-nı dövlət maliyyələşdirəcək. Lakin gələn il yanvarın 1-dən bizim heç bir işimizlə bağlı maliyyələşmə yoxdur. Bizə sadəcə 1 milyon pul veriləcək və bununla Dövlət İmtahan Mərkəzi fəaliyyətə başlayacaq".

M.Abbaszadə qeyd edib ki, TQDK-ya dövlət icra orqanı olduğu üçün ildə 7 milyon manatadək büdcədən maliyyə ayrılıb. Bunun təxminən 2 milyonu idarənin saxlanılması, qalan 5 milyonu isə imtahanların keçirilməsinə sərf olunub: "İmtahanlarda dövlət orta hesabla hər bir abituriyentə 25 manat pul xərcləyirdi".

M.Abbaszadə əlavə edib ki, yalnız IX və XI siniflər üçün keçirilən buraxılış imtahanları pulsuz olacaq. Onun sözlərinə görə, dövlət tərəfindən sifariş verilən imtahanlar ancaq buraxılış imtahanlardır və biz bilirik ki, dövlət digər imtahanları maliyyələşdirməyəcək. Dövlət imtahanlar üçün pul ayırmasa, bunu başqa hansı formada apara bilərik? Məlum olub ki, SAT imtahanlarının qiyməti 100-150 manat, İELTS imtahanlarının qiyməti 225 manat, Türkiyənin ali məktəblərinə imtahanların qiyməti isə 50-60 dollardır. Bizim apardığımız imtahan isə dövlətə az maliyyə vəsaitinə başa gəlirdi. Çünki əsasən proqram təminatı TQDK-nın mütəxəssisləri tərəfindən yazılırdı, kənardan proqram təminatını sifariş vermirdik. Yəqin ki, gələcəkdə də müəyyən sifarişlər əsasında imtahanlar keçiriləcək və bu xidmətlərin bir qismi yenə də vətəndaşlar üçün pulsuz olacaq. Sadəcə müəyyən adamlar var ki, TQDK-nı günahlandırmaq üçün fürsət gözləyirlər. Məsələ ilə bağlı şərh verənlər özləri öz sözlərinə cavabdehdirlər".

(TQDK)2016/2017-ci tədris ili üzrə Azərbaycanın ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün keçid ballarını açıqlayıb.

APA-nın xəbərinə görə, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bu gün keçirilən mətbuat konfransında bildirib ki, hər bir qrup üzrə ixtisasların müsabiqəsində yalnız tələb olunan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər. 2016/2017-cı tədris ili üçün I, II, III və IV ixtisas qruplarının müsabiqəsində (ixtisas seçimində) ümumi balı 200-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilər. Ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur.

I ixtisas qrupunun "Riyaziyyat", "Fizika, "İnşaat mühəndisliyi", "İnformasiya texnologiyaları", "Elektronika", "Telekommunikasiya və radio texnika mühəndisliyi" ixtisasları üzrə ümumi balı 250-dən, "Kompyuter elmləri", "Geologiya" ixtisasları üzrə ümumi balı 300-dən və hər bir fənn üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayanlar, V ixtisas qrupunda qabiliyyət imtahanı üzrə yekun nəticəsi və test imtahanında topladığı ümumi balı TQDK tərəfindən müəyyən edilmiş tələblərə uyğun olanlar ixtisas seçimində iştirak edəcəklər.

Azərbaycan Dillər Universitetinin "Tərcümə (dillər üzrə)", "Beynəlxalq münasibətlər və regionşünaslıq (regionlar üzrə)" ixtisaslarının müsabiqəsində xarici dil fənn üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak edə bilərlər Bakı Dövlət Universitetinin I, II və III qruplarda tədrisi ingilis dilində olan ixtisasların müsabiqəsində attestatında xarici dil fənni kimi ingilis dili göstərilən və qəbul imtahanında ingilis dili fənni üzrə nisbi balı 60-dan az olmayanlar, IV qrupda tədrisi ingilis dilində olan ixtisasların müsabiqəsində isə ingilis dili fənni üzrə attestat qiymət "4" və "5" olan abituriyentlər iştirak edə bilərlər.

"Aqromühəndislik", "Torpaqşünaslıq və aqrokimya", "Balıqçılıq və balıq təsərrüfatı işi", "Meşəçilik", "Aqronomluq", "Zootexniklik", "Baytarlıq", Subioehtiyatları və akvabitkilər" ixtisaslarına, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin "Melorasiya və Su Təsərrüfatı tikintisi mühəndisliyi", "Ekologiya" və "Əczaçılıq" ixtisaslarının müsabiqəsinə ümumi balı 150-dən az olmayan abituriyentlər buraxılırlar. Bu zaman abituriyentlərin fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur.



# Azərbaycanda Maliyyə Sabitliyi Şurası yaradılıb

## Quruma Artur Rəsizadə sədrlik edəcək

**Azərbaycan prezidenti İlham Əliyev Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında fərman imzalayıb. APA-nın xəbərinə görə, fərmana əsasən ölkənin makroiqtisadi sabitliyinin daha da möhkəmləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi, habelə səmərəli tənzimləmə və hüquqtətbiqetmə praktikasına nail olunması məqsədilə aşağıdakı tərkibdə Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası yaradılır:**

Şuranın sədri:

**Artur Rasi-zadə** - Azərbaycan Respublikasının baş naziri

Şuranın üzvləri:

**Natiq Əmirov** - Azərbaycan Respublikası prezidentinin İqtisadi islahatlar üzrə köməkçisi

**Samir Şərifov** - Azərbaycan Respublikasının maliyyə naziri

**Şahin Mustafayev** - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Elman Rüstəmov** - Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

**Rüfət Aslanlı** - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri

**Şahmar Mövsümov** - Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

Şuranın cari fəaliyyətinin təşkili məqsədilə Şuranın Katibliyi yaradılacaq. Katibliyin funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikası Mərkəzi Bankına tövsiyə edilir.

Fərmanda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi işinə Şura tərəfindən yerli və xarici ekspertlər, mütəxəssislər, beynəlxalq təşkilatlar və elmi müəssisələr cəlb oluna, müxtəlif dövlət orqanlarının və maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yaradıla bilər.

Şuraya aşağıdakı vəzifələr tapşırılır:

- Bir ay müddətində ölkədə maliyyə-kredit sektorunun mövcud vəziyyətinin təhlili, qanunvericilik bazasının ekspertizasının həyata keçirilməsi, maliyyə sabitliyinin tənzimlənməsi sahəsində qabaqcıl beynəlxalq prinsip və standartlar əsas götürülməklə gələcəkdə yarana biləcək təhdidlərin qarşısının alınması, makroiqtisadi sabitliyin, maliyyə dayanıqlığının təmin edilməsi ilə bağlı baxışa, orta perspektivə dair atılacaq addımlara və icra mexanizmlərinə dair təkliflər hazırlayıb prezidentə təqdim edilməsi;
- Makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirməklə bu barədə prezidentə hər rübdən sonrakı ayın 30-dək məlumat verilməsi.



## Terror arealı - Orlandodan Dəkkəyə, İstanbuldan Məkkəyə qədər

Xalid KAZIMLI

**Bu, 2016-cı ildə terrora dair neçənci köşə yazımdır, bilmirəm, hesab itib artıq. Çünki bu ilin əsas siyasi hadisəsi məhz terror aktları olub. Nitsa teraktı nə birincidir, nə də sonuncu.**

Bu, antibəşəri cinayətlərin coğrafiyası çox genişdir - ABŞ-dan Banqladeşə, Avstraliyadan Fransaya qədər.

Arada Belçika, Türkiyə, Almaniya, Səudiyyə Ərəbistanı kimi neçə-neçə ölkələr də var.

Ənənəvi terror yuvaları olan Əfqanıstan, Pakistan, Suriya, İraq kimi ölkələrdən də vaxtaşırı bənzər xəbərlər gəlir, gələcək. Bu ölkələrdə terror artıq normadır.

Dünya əhli müdhiş bir bəla ilə üz-üzədir. Böyük dövlətlər terror qarşısında acizdir, çarəsizdir, onu önləyə bilmirlər.

Düzdür, heç bir terror cəzasız qalmır, onu təşkil edənlər, həyata keçirənlər, icraçılara yardım göstərənlər mütləq tapılır, ya öldürülür, ya tutulurlar, amma bu, terror qurbanlarını geri qaytarmır.

Onlar isə adi, sıravi adamlardır. İçində körpə balalarının əlindən tutub hansısa bir şənliyə gedənlər də var, üç gündən sonra ailə həyatı qurmağa hazırlaşan nişanlılar da, cibindəki son pulu verib övladına nəsə alıb aparan, evinə tələsənlər də... Cürbəcür insanlar. Xırda qayğıların əlində əsir-yesir qalan, öz adi, sakit həyatlarını yaşayan sadə insanlar....

Birdən-birə onlar dünyanı dolaşan bir xəbərin əsas fiqurantına çevrilirlər. Məlum olur ki, hansısa psixopat terrorçu, canından bezmiş kamikadze məhz onları öldürərək, dünyanı idarə edənlərin qərarlarına təsir göstərmək istəyirlər.

Təsəvvür edin, Ərdoğana təsir etmək üçün yazıq Mehmeti, Ollanddan nəyinsə qisasını almaq üçün bədbəxt Pyeri, Obamaya acıq vermək üçün günahsız Conu öldürürlər. Sanki adları şərti olaraq çəkilən sadə insanlar adları çəkilən dövlət rəhbərlərinin əzizləridir və onlar bu ölümlərdən sarsılacaqlar.

Elə deyil. O cür sadə insanlardan hər ölkədə milyonlarla var və onların ölümü dövlət başçılarını cəmi bir gün məyus edə bilər, ertəsi gün o terror qurbanları onlar üçün statistik göstəricidən başqa bir şey olmayacaq.

Bu baxımdan sadə insanları kütləvi şəkildə qətlə yetirərək nəyəsə nail olacaqlarını düşünənlər yanılırlar. Onlar hər gün yüz o qədər məsum insan öldürsələr də, dünyanı, böyük dövlətləri idarə edənlər öz bildikləri yolla gedəcək, öz qərarlarından dönməyəcək, hələ bir az da sərtləşəcəklər.

Ötən əsrin 90-cı illərinin ortalarında çeçen mücahidlər bir neçə səs-küylü terror aktı törədərək, Rusiyanın müxtəlif şəhərlərində insanları kütləvi şəkildə girov götürmüş, öz iradələrini Rusiya rəhbərliyinə diktə etmişdilər. Prezident Yeltsin onların istəklərini yerinə yetirmişdi - insan tələfatı olmasın deyə.

Sonrası nə oldu? Terror bitdimi? Bitmədi. Mücahidlər daha bir neçə bənzər əməliyyat həyata keçirdilər və axırda gəlib Putinə ürcah oldular. Prezident Putin isə ilk gündən terrorçularla hər hansı bir danışığı, razılaşmanı inkar etdi və günahsız insanların qurban gedib-getməyəcəyinə məhəl qoymayaraq, terrorçuların məhv edilməsi yolunu seçdi.

"Nord-ost" müziklində tamaşaçıların, daha sonra Beslan şəhərindəki orta məktəbdə şagird və müəllimlərin girov götürülməsi aktları məsum insanların kütləvi ölümlərilə nəticələndi, amma bariz şəkildə ortaya çıxdı ki, Putin Yeltsin qədər ürəyiyumşaq deyil, onu "günahsız insanlar öləcək" deyə şantaj etmək mümkün olmayacaq. Ondan sonra girovgötürmə teraktlarına son qoyuldu.

İndi də İŞİD, "əl-Qaidə", PKK və başqa terror təşkilatları hesab edirlər ki, günahsız insanları bomba partlayışlarında qətlə yetirməklə, güllələyib öldürməklə nəyəsə nail olacaqlar, mübarizə apardıqları dairələri geri çəkilməyə məcbur edəcəklər.

Xeyr, elə olmayacaq. Terrorçular olsa-olsa, yalnız adi adamlara qəsd edə biləcəklər, onlara problem yaradacaq, iztirab yaşadacaqlar və özləri məhv olacaqlar.

**Hazırda dünyada 7 milyard adam var, bunun 1 milyardı olmasa, terrora qurban getsə, guya dünyanı idarə edən dairələrin, liderlərin vecinə olar? Olmaz, heç cür olmaz. Terror aktı barədə fətva verənlərin bunu, nəhayət, anlaması lazımdır.**

**İyulun 15-də terrorçular Fransanı növbəti dəfə qana boyadılar. 14 iyul Bastilyanın alınması, yəni Fransanın müstəqil gününü Nitsada qeyd edənlərin yük avtomobilini idarə edən 31 yaşlı Tunis əsilli Məhəmməd Lahouaiej Bouhlelin hücumuna məruz qalmaları çoxsaylı insanların həyatını itirməsinə və yaralanmalarına səbəb oldu.**

Terrorçu əvvəlcə yük avtomobilini insanların üzərinə sürüb, ardınca isə orada olanları atəşə tutub. Ağır yaralananlar çox olduğundan ölülərin sayı getdikcə artmaqdadır. İŞİD terror qruplaşması məsuliyyəti öz üzərinə götürüb. Artıq həlak olənlərin sayı 90-a yaxınlaşır. 100-dən çox yaralı var.



# İŞİD yenə Fransanı qana boyadı - terror aktının şok detalları

## Terror niyə Avropa Çempionatında deyil, müstəqillik günündə törədildi? Avropada müsəlmanlara qarşı yeni kampaniya başlaya bilər; **İlham İsmayıl:** "Terror qarşıya məqsəd kimi qoyuldusa..."

Fransadakı terror hücumu dünyanı yenidən şoka salıb. Xüsusilə, hadisənin Futbol üzrə Avropa Çempionatının bitməsindən qısa müddət sonra baş verməsi Avropa ölkələrini qorxutmaqla yanaşı, bir sıra suallar yaradıb. Ekspertlərin əksəriyyəti düşünür ki, Fransa artıq çempionatın keçirildiyi günlərdə hədəfdə imiş.

"Nitsada baş vermiş terror aktı zamanı ölənlər və xəsarət alanlar arasında azərbaycanlılar yoxdur. Hazırda dəqiqləşdirmə aparmaq üçün burada olan azərbaycanlılarla əlaqə qurmağa çalışırıq". Bunu Anspress-ə Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva deyib. Onun sözlərinə görə, hadisə zamanı əraziyə yaxın yerlərdə həmyerlilərimiz olsa da, terror aktı törədilən küçədə heç bir azərbaycanlı olmayıb.

Hadisə nəticəsində Rusiya, Ukrayna və Ermənistandan bir vətəndaşın öldüyü deyilir. Bəzi məlumatlarda iki erməninin öldüyü qeyd olunur. Rusiya Turizm Sənaye İttifaqının mətbuat katibi İrina Tyurina məlumat verərək bildirib ki, hadisə baş verən an Rusiyadan olan iki rəfiqə İngilis sahili boyunca gəzib. Elə bu zaman onlardan biri yük maşınının təkəri altında qalaraq ölüb, digəri isə yaralanıb. Yaralanan şəxsin ayaq barmaqları sınıb və o, bir neçə kiçik zədələr alıb. Ölən qızın isə 20 yaşlı Moskva sakini Viktoriya Savçenko olduğu deyilir.

Ukrayna Xarici İşlər naziri Pavel Klimkin də Ukraynadan olan bir nəfərin faciə qurbanı olduğu haqqında məlumat verib. Onun sözlərinə görə, daha bir nəfər ağır yaralanıb.

Nitsa terroru ölkəmizlə yanaşı, qardaş Türkiyədə də ciddi narahatlıqla qarşılanıb. Buna səbəb günlər öncə İŞİD-ın hər iki ölkəni hədəfə alması ilə bağlıdır. Ölkə başçısı İlham Əliyev baş vermiş faciə ilə bağlı fransalı həmkarı Fransua Ollanda başsağlığı məktubu göndərib.

***

Törədilən faciə ilə bağlı "Yeni Müsavat"a açıqlamasında sabiq **MTN polkovniki, politoloq İlham İsmayıl** növbəti dəfə Fransanın terror hədəfinə tuş gəlməsinə belə aydınlıq gətirdi: "Fransanın XVIII-XIX əsrlərdən ərəblərlə geniş əlaqələri olub. Ərəblər tədricən bu ölkədə məskunlaşıblar. Almanlar türkləri qəbul etdikləri kimi, fransızlar da ərəbləri qəbul ediblər. Son dövrlərdə terrorun daha geniş vüsət alması və Fransanın terrorla qətiyyətli mübarizəsi bu dövlətin növbəti dəfə hədəfə alınmasına səbəb oldu. Burada əsas maraqlı cəhət odur ki, kənar yerdən terrorçu axtarmırlar. Avropanın özündə radikal ərəb kökənli şəxslər olduğuna görə, belə hadisələrdə onlardan istifadə etmək asan olur. Brüssel terrorunu törədən, eyni zamanda Fransada ilk terroru həyata keçirən də ərəb kökənli terrorçu idi. Son terror hadisəsində başqa nüanslar da var. Bildiyiniz kimi, 14 iyulda Bastilyanın alınması təkcə Fransanın müstəqillik günü kimi qeyd olunmur. Bu, dünyada demokratiyanın başlanğıcı olan nöqtə idi. O gündən bu yana dünyada demokratik proseslər davam edir. Fransadakı bu terror düşünürəm ki, təkcə fransızlara qarşı deyil, bütün demokratik dünyaya qarşıdır. Qərbə yönəlik bir hadisədir. Terror yenilik deyil, amma bu məsələni tarixi günlə əlaqələndirmək lazımdır".

**Sabiq MTN-çi günlər öncə başa çatan futbol üzrə Avropa Çempionatında bu hadisənin törədilməməsinin səbəblərini sadaladı:** "Bildiyiniz kimi, çempionat konkret stadionlarda keçirilirdi. Stadionların giriş-çıxışına nəzarət etmək asandır, nəinki Aralıq dənizi sahilində Nitsa kimi şəhərdə böyük bulvar sahəsinə nəzarət etmək. Ora bir giriş və bir çıxışdan ibarət deyil. Orada prospektlə böyük yük avtomobillər belə hərəkət edə bilir. Avropa Çempionatında həyata keçirilə bilməyən niyyət Bastilyanın alınması gününə təsadüf etdi. Adi bir vaxtda hadisə baş versəydi, az adam ölə bilərdi, amma qələbəlik tədbirində insanların sayı çox olur. Türkiyədə turizmi öldürmək üçün də bu tipli addımlar atılır. Nitsa beynəlxalq turizm mərkəzidir. Onu da nəzərə almaq lazımdır ki, kurort yerlərində polisin və milli təhlükəsizlik orqanlarının peşəkarlığı adətən aşağı olub. Çünki insanlar ora istirahətə gəlirlər, cinayət törətməyə yox. Terror məsələsində nə qədər güclü olsan da, nə qədər xüsusi xidmət orqanı peşəkar olsa da, terror keçirmək qarşıya məqsəd qoyuldusa, qarşısını almaq mümkünsüzə çevrilir. Dünya öz düzənini dəyişməsə, bu proseslər davam edəcək. Bu gün dünyada terrora münasibətdə dövlətlərin münasibəti birmənalı deyil. Ən azından Suriya məsələsində hamı bilir ki, Qərb bir tərəfə, Rusiya digər tərəfə çəkir. Qonşu Türkiyə də tamam başqa istiqamətə çəkir. BMT də yeni bir plan hazırlanmalıdır. Bu məsələdə ən kəskin mövqelər tutulmalıdır. Terrordan bir dövlət digər dövlətə qarşı təzyiq vasitəsi kimi istifadə etdikcə, bu faciələr də bitməyəcək".

**İ.İsmayıl terrorun taktikasının dəyişməsindən də söz açdı**: "Standart vəziyyətlərə qarşı daim də standart tədbirlər görülür. Artıq dövlətlər bilirlər ki, belə terrorlarda hansı işləri görmək lazımdır. Çünki Türkiyə və Belçikada bunun nümunəsini görüblər. Konkretin bir yerin mühafizəsini qurmaq asandır, nəinki bütöv bir şəhərin. Taktikanın dəyişməsi o deməkdir ki, İŞİD-ın rəhbərliyində sadəcə, dindarlar oturmayıb, rəhbərlikdə təlimatçılar var. Bu təlimatçılar içərisində Avropa, Asiya və digər ərazilər üzrə şəxslər var. Hər dəfə terroru necə həyata keçirən üzərində yeni-yeni planlar qururlar. Düşünmək olmaz ki, terrorçular yalnız döyüşmək üçün yaranıblar, onların da beyinləri var. Burada mütəxəssislər də var. Onlar işsiz qaldıqları zaman böyük maliyyəsi olan İŞİD-ə üz tuturlar, orada planlar cızıb, pullarını qazanırlar".

**Keçmiş MTN polkovniki Avropada bu hadisə ilə müsəlmanlara qarşı yeni kampaniyanın başlayacağını qeyd etdi**: "Qərb, o cümlədən, Amerika dövlətləri səviyyəsində açıq mövqe olmasa da, bu ölkələr daxilində İslama, müsəlmanlara qarşı mənfi imic formalaşacaq. Niyə də olmasın? Əgər bu faciələri xristian və yəhudi dünyası etmiş olsaydı, indi müsəlmanlar və İslam ölkələri tərəfindən sərt təpki göstərilmişdi. Tolerantlıq Qərbdədir ki, bu qədər məsələlərdən sonra hələ də müsəlmanları qəbul edirlər, sığınacaq verirlər. Artıq Avropada müsəlmanlara qarşı münasibət mənfiyə doğru dəyişib, bu daha da şiddətlənəcək".

**İlham bəy Azərbaycanın hələ İŞİD təhlükəsindən uzaq olduğunu söylədi:** "Ölkəmizin hədələnməsi barədə fikirlər bildirmişəm. Amma hədədən o tərəfə deyil. Bu, Azərbaycandan gedənlərə rəhbərlik edənlərin hədəsi idi. Sadəcə, cəmiyyətimizi səksəkə də saxlamaq məqsədi var idi. Bununla İŞİD-a qoşulmaq üçün Azərbaycanda tərəddüd keçirən şəxslərə mesaj verilir ki, biz güclüyük. Çünki güclüyə qoşulmağa insanlar daha çox meylli olurlar. Azərbaycan Fransa, Amerika və digər Avropa dövlətləri kimi hədəfdə deyil. Amma sığortalanmamışıq. Hər zaman hər şey mümkündür. "Canlı bomba"nı Şimalı Qafqazdan ölkəmizə keçirmək ehtimalı çox yüksəkdir. Necə ki, Türkiyənin hava limanında terroru keçmiş sovet vətəndaşları törətmişdilər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 153 (6474) 16 iyul 2016

# Prezidentin torpaq proqramı - kənd təsərrüfatı ölkəsinə çevrilirik?

## Ekspertlər bildirirlər ki, iqtisadi vəziyyət torpaqdan istifadənin effektivliyinin artırılmasını diktə edir, çünki...

**Dövlət başçısı İlham Əliyev bir neçə gün əvvəl "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Ekspertlər bildirirlər ki, mövcud sərəncam Azərbaycanın kənd təsərrüfatı ölkəsinə çevrilməsinə kömək edə bilər. **Ekspert Elşad Məmmədov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, iqtisadi vəziyyət torpaqdan istifadənin effektivliyinin artırılmasını diktə edir: "Müasir iqtisadi vəziyyət dövlət tərəfindən bütün mövcud resurslardan daha səmərəli istifadə etməyi zəruri edir. Artıq dövlət səviyyəsində qəbul olunmuş trend ondan ibarətdir ki, ölkədə "neft dövrü" başa çatmaq üzrədir və iqtisadiyyatın diversifikasiyası aktiv şəkildə həyata keçirilməlidir. Ölkə hökuməti tərəfindən kənd təsərrüfatı və turizmin inkişafı bu baxımdan prioritet istiqamət kimi qəbul olunmaqdadır. Məsələyə bu prizmadan yanaşanda ölkə prezidentinin sərəncamı aktual və məntiqli addım kimi qiymətləndirilməlidir".

Ekspertin sözlərinə görə, torpaqdan istifadənin hazırki səmərəlilik göstəriciləri bu sahələrin dinamik inkişafı üçün məqbul sayıla bilməz: "Bu baxımdan yaxın gələcəkdə əldə ediləcək nəticələr bütövlükdə iqtisadiyyatın diversifikasiyasının, iqtisadi islahatların nə dərəcədə uğurlu olacağını şərtləndirən əsas amillərdəndir. Burada mühüm məqam ondan ibarətdir ki, ölkənin əmək resursları son 25 il ərzində torpaqdan xeyli dərəcədə uzaqlaşmışlar ki, bu da iqtisadiyyatda struktur disbalansın dərinləşməsi ilə, o cümlədən ölkədə regional inkişaf baxımından kompleksli problemlərlə nəticələnib. Bununla belə, qeyd etmək lazımdır ki, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılması istiqamətində atılacaq addımlar hazırki şəraitdə və yaxın perspektivdə kifayət qədər çətin proses kimi görünür, bu sahədə hüquqi, təşkilati və digər problemlər mövcuddur ki, onların həlli hökumət tərəfindən ciddi iradənin ortaya qoyulmasını tələb edəcək. Buna görə də bu istiqamətdə atılacaq addımlar sistemli olmalıdır və aidiyyəti dövlət qurumları və onların rəhbərləri bu məsələnin həllində, özlərinin və korporativ maraqlarından deyil, ölkənin strateji maraqlarından çıxış edərək, iqtisadiyyatın dayanıqlı inkişafının fundamental əsaslarından olan torpaqdan istifadənin səmərəliliyinin artırılmasına nail olmalıdırlar. Bunun üçün, bu istiqamətdə planlaşdırılan tədbirlərin lazımi effekt verməsi üçün onların real icra mexanizmləri hazırlanmalı və tətbiq edilməlidir. Nəzərə almaq lazımdır ki, bu istiqamətdə əldə edilən nailiyyətlər ölkənin ancaq ixrac potensialının inkişafı baxımından deyil, həm də daxili bazarın təmin edilməsi və qorunması, idxaldan asılılığın aradan qaldırılması, idxalı əvəz edə biləcək istiqamətlərin inkişafı, ölkədə yeni, dayanıqlı iş yerlərinin açılması və digər makroiqtisadi baxımdan ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyətli məsələlərin həllinə xidmət edə bilər".



**Ekspert Qubad İbadoğlu** isə musavat.com-a qeyd edib ki, əslində iqtisadi baxımdan kənd təsərrüfatı ölkəsinə çevrilmək vacibdir: "Devalvasiyadan sonra yaranmış situasiyadan ən çox qazanmaq imkanına malik olan sektorlar arasında arqrar sektor öndə gəlir. Ölkə hazırda daha çox idxal malları hesabına özünün ehtiyaclarını ödəyir. Bu baxımdan, kənd təsərrüfatı məhsullarının və emal sənayesi məhsullarının önəmi artır. Qeyri-neft ixracatında da birinci ən böyük qrup kənd təsərrüfatı məhsullarıdır. Bütövlükdə götürəndə həm meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağlar neft ixracatında birinci öndə gələn mallardır. Bu baxımdan, həm daxildə idxalı əvəz etmək üçün, həm də bütövlükdə qeyri-neft ixracatını artırmaq üçün kənd təsərrüfatına fokuslanmağa dəyər. Amma kənd təsərrüfatının özünün problemi məhsuldarlıqdır, rentabellikdir. Və eyni zamanda, kənd təsərrüfatı həm də innovasiya və digər bu kimi yeniliklərdən geri qalır. Kənd təsərrüfatında bu islahatların aparılması, texniki yeniləşmə prosesinin həyata keçirilməsi isə müəyyən müddət tələb edir. Bu baxımdan, hesab edirəm ki, ilk növbədə münbit əkin sahələrinin üzərində bu istehsalın qurulması üçün, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün mövcud olan baryerlər aradan qaldırılmalıdır. O baxımdan da belə bir fərman verilibsə, bu istiqamətdə yeni proqram hazırlanıbsa və o, həqiqətən də yardım olacaqsa, bunu müsbət dəyərləndirmək lazımdır. Çünki indiki halda bizim alternativ, əsasən də neftdən gələn maliyyə imkanlarımız yüksək deyil. Kənd təsərrüfatının bir üstün cəhəti ondan ibarətdir ki, iş yerlərinin açılması baxımından kənd təsərrüfatının potensialı digər sektorlardan böyükdür. Kənd təsərrüfatı əməktutumlu sahədir. Ona görə düşünürəm ki, bu siyasət, sektorial olaraq kənd təsərrüfatının önə çıxması daha düzgündür".

**Qeyd edək ki, İ.Əliyev iyulun 10-da Nazirlər Kabinetinin iclasında torpaqların zəbt olunmasına toxunub:** "Bəzi hallarda torpaqlar zəbt edilib. Minlərlə torpaq sahələri hasarlanıb. Orada heç bir fəaliyyət göstərilmir. Mən göstəriş vermişəm, arayış da hazırlayıb veriblər və orada dövlət məmurlarının adları da var. Zəbt edilmiş o torpaqların bir hissəsi onlara məxsusdur".

**O, həmçinin qeyd edib ki, kənd təsərrüfatında çox böyük inkişaf gözlənilir:** "Birincisi, indi həm islahatlar aparılır, tədbirlər görülür, həm də çox ciddi elmi yanaşma var. Əminəm ki, biz yaxın zamanlarda daha da böyük nəticələr görəcəyik. Qeyd etdiyim kimi, bu il artıq 3,1 faiz artım var. Amma daha da böyük artım gözlənilir. Əlbəttə ki, biz torpaqlardan daha da səmərəli şəkildə istifadə etməliyik. Burada təkliflər səsləndi. Mən bu təklifləri, xüsusilə heyvandarlıqla bağlı olan təklifləri dəstəkləyirəm. İndi heyvandarlıq qapalı yerlərdə inkişaf edir. Ona görə, o qədər də böyük örüş torpaqlarına ehtiyac yoxdur. Bu torpaqlardan səmərəli şəkildə istifadə olunmalıdır ki, ərzaq təhlükəsizliyi tam təmin edilsin və çox böyük ixrac potensialı da yaradılsın... Xüsusilə nəzərə alsaq ki, neftdən gələn gəlirlərin həcmi azalıb, biz bu gəlirləri müəyyən mənada kənd təsərrüfatı məhsullarının ixracı ilə kompensasiya etməliyik. Ona görə torpaqlardan səmərəli şəkildə istifadə əsas vəzifədir. Bəzi hallarda torpaqlar zəbt edilib. Minlərlə torpaq sahələri hasarlanıb. Orada heç bir fəaliyyət göstərilmir. Mən göstəriş vermişəm, arayış da hazırlayıb veriblər və orada dövlət məmurlarının adları da var. Zəbt edilmiş o torpaqların bir hissəsi onlara məxsusdur. Bu, yolverilməzdir".

❑ **Röya RƏFİYEVA**

# ABŞ seçkilərində gözlənilən nəticə: Klintonun şansı yüksəlir

## Şahin Cəfərli: "Bu məsələdə demokratların hazırda hakimiyyətdə olması amili də rol oynayıb"



Şahin Cəfərli

**ABŞ-da prezident seçkisi namizədlərin qarşılıqlı ittihamları və qalmaqallarla davam edir. Artıq keçmiş namizədlər də səylərini birləşdirərək Trampın seçilməməsi üçün əllərindən gələni əsirgəmirlər. Çünki partiyaların rəsmi namizədlərinin seçiləcəyi günə çox az qalıb. Belə ki, iyulun 18-21-də ölkənin Ohayo ştatının Klivlend şəhərində Respublikaçılar Partiyasının qurultayında Donald Tramp prezidentliyə rəsmi namizəd olaraq irəli sürüləcək. İyulun 25-28-də isə Demokratlar Partiyası Pensilvaniya ştatının Filadelfiya şəhərində Hillari Klintonun ölkə prezidentliyinə namizədliyini rəsmiləşdirəcəklər.**

Vaxt daraldıqca mübarizə daha da kəskinləşir. Artıq sabiq demokrat namizəd Berni Sanders də Trampa qarşı mübarizədə Hillari Klintona dəstəyini ifadə edib. Bu isə o deməkdir ki, Klinton artıq Sandersin seçicilərindən də faydalana biləcək.

ABŞ-ın hazırki prezidenti Obamanın da Klintonu dəstəkləməsi onun reytinqlərinə müsbət təsir göstərir.

Klinton isə ən böyük rəqibi haqqında ictimai rəyi dəyişdirməyə çalışır. İllinoys ştatında keçirdiyi seçkiqabağı mitinqdə Hillari Klinton Trampı ABŞ üçün təhlükə saydığını bildirib: "Bizə dağıdıcı deyil, birləşdirici prezident lazımdır. Ona görə də hesab edirəm ki, Donald Tramp ölkəmiz üçün təhlükəlidir".

Donald Tramp və onun seçki kompaniyasındakı tərəfdarları Hillari Klintona qarşı "email" qalmaqalından istifadə edirlər.

Siyasi təhlilçilər isə ABŞ xalqının ciddi seçim qarşısında olduğunu bildirirlər. Onların fikrincə, Klintonun hakimiyyəti dövrü sabitlik və Trampın hakimiyyəti dövrü isə radikal dəyişiklik arasında bir seçimə bənzəyir. Seçicilər isə bu məsələyə daha mühafizəkar yanaşa bilər, çünki onlar böyük riskə getmək istəmirlər.

Bu səbəbdən politoloqlar hesab edir ki, Klinton üçün ən yaxşı addım praymerizlərdə Trampın prezident seçilməsinin nə dərəcədə riskli olduğunu amerikalılara çatdırmaqdır.

**ABŞ seçkilərini izləyən politoloq Şahin Cəfərli** isə "Yeni Müsavat"a açıqlamasında Hillari Klintonun cüzi fərqlə favorit olduğunu bildirdi: "Hillari Klinton hazırda ABŞ-dakı seçkilərin favoritidir. Rəy sorğuları onun Donald Trampdan minimum 4% irəlidə olduğunu göstərir, bəzi sorğuların nəticələrinə görə isə fərq daha böyükdür.

Hillari Klintonun dövlət katibi vəzifəsində çalışdığı dövrdə iş yazışmalarında şəxsi elektron poçtundan istifadə etməsi ilə bağlı qalmaqal da səngiyib. Federal Təhqiqatlar Bürosu və Baş Prokurorluq bu məsələ ilə əlaqədar təhqiqat aparılmasına ehtiyac olmadığını bildiriblər. Şübhəsiz ki, bu məsələdə demokratların hazırda hakimiyyətdə olması amili də rol oynayıb. İqtidarda respublikaçılar olsaydı, aydındır ki, onlar bu məsələdən Klintonun əleyhinə maksimum istifadə edəcəkdilər. Elə indi də respublikaçılar Konqresdəki üstünlüklərindən istifadə edərək mövzunu gündəmdə saxlamaq və Klintonun reytinqinə mümkün qədər zərbə vurmaq istəyirlər".

**Politoloqun fikrincə, Klintona səs verənlər təkcə ona rəğbət bəslədikləri üçün yox, həm də Trampın seçilməsinə yol verməmək üçün bunu edəcəklər:** "Demokratların ilkin seçki yarışında ciddi populyarlıq qazanan Berni Sandersin Hilari Klintona öz dəstəyini açıqlaması şübhəsiz ki, xanım namizədin reytinqinə müsbət təsir göstərəcək. Düzdür, Sandersin liberal-sol mövqeli tərəfdarlarının bir qismi senatorun bu addımını müsbət qarşılamayıb və onlar Yaşıllar Partiyasının prezidentliyə namizədi Jill Steyni dəstəkləyəcəklərini bildirirlər. Lakin hesab edirəm ki, Donald Trampın seçilməsinə yol verməmək üçün demokrat seçicilərin Hillari Klintona simpatiya duymayan hissəsi də sonda xanım Klintona səs verməli olacaq. Donald Trampa gəldikdə isə respublikaçılar daxilindəki ilkin seçkidə qazandığı parlaq zəfərə baxmayaraq, onun şansı yüksək qiymətləndirilmir. Trampın mənfi reytinqi çox yüksəkdir və yeni seçici kütlələrini öz ətrafına cəlb etmək imkanları məhduddur. Lakin seçkilərə qədər ölkədə baş verə biləcək bəzi hadisələr, məsələn, iri terror aktları Trampın reytinqini artıra bilər".

❑ **Nərgiz LİFTİYEVA**

Yeni Müsavat
N 153 (6474) 16 iyul 2016



# İşıqpulunun bahalaşmasına reaksiyalar

## Ekspertlərə görə, digər sahələrdə də qiymət artımı və bahalaşma gözlənilir; Vahid Əhmədov: "Hökumət ən asan yolu seçərək yükü əhalinin çiyinlərinə qoydu"

**İyulun 14-də Tarif (Qiymət) Şurasının qərarı ilə ölkədə bir kilovat-saat elektrik enerjisinin topdansatış tarifi 4,3 qəpik, pərakəndə satış tarifi isə 7 qəpik müəyyən edilib. Bu, o deməkdir ki, əhali üçün elektrik enerjisi 1 qəpik bahalaşıb. Ekspertlər bu artımı və onun nəticələrini qəzetimizə şərh ediblər.**

**Ekspert Elşad Məmmədov**a görə, bu qərarın əsas səbəbi son illər elektrik enerjisi sektorunun idarəetməsindəki ciddi problemlərlə bağlıdır: "Belə ki, təbii inhisar subyekti olan "Azərenerji" uzun illər dövlətdən ciddi maliyyə-təşkilati dəstək almasına baxmayaraq, menecmentindəki ciddi problemlər nəticəsində nəinki rentabelli işləməmiş, ildən-ilə zərərlə fəaliyyət göstərərək, dövlət zəmanəti ilə böyük həcmdə xarici borclanmaya getmiş, bundan əlavə, büdcə qarşısında, son məlumatlara görə, 800 milyon manata yaxın borc formalaşdırıb. Bütün bunlar ölkədə elektrik enerjisindən istifadəyə görə debitorlardan yığım səviyyəsinin kifayət qədər yüksək səviyyədə olmasını da nəzərə aldıqda, ən azı təəccüb doğurur. Qurumun idarəetməsindəki problemlər ilk növbədə, xərclər portfelinin formalaşmasında, xərclərin effektivliyi ilə bağlı ciddi problemlərin və sualların olduğunu göstərir. Çünki bu sahəyə son illər ərzində bəzi hesablamalara görə, respublika üçün çox böyük vəsaitin, təxminən 4 milyard manat yatırılmasına baxmayaraq, qurumun acınacaqlı maliyyə vəziyyətdə olması, sözsüz ki, qeyri-effektiv menecmentdən xəbər verir. Bununla belə, bu sektorun hazırki maliyyə durumu bu sahənin de-monopolizasiyasını, xarici investorların cəlb edilməsini də kifayət qədər problemli edir. Belə ki, hazırkı vəziyyətdə, yeni tariflər belə xarici investorlar üçün elektrik enerji sektorunu investisiya perspektivləri baxımından cəlbedici etmək iqtidarında deyil. Əksinə, perspektivdə manata artacaq təzyiq son qiymət artımının gözlənilən müəyyən iqtisadi effektini belə minimuma endirə bilər. Beləliklə, fikrimcə, elektrik enerjisi sektorundakı problemlərin həlli üçün əsas istiqamət kimi qiymət siyasəti deyil, korporativ menecmentin effektiv səviyyəyə çatdırılması, o cümlədən xərclər portfelinin optimallaşdırılması məqsədəuyğundur. Əks halda, gördüyümüz kimi, bu sahənin idarəetməsindəki ciddi problemlərin ağırlığı dövlətin və son nəticədə əhalinin üzərinə düşməkdədir".


Vahid Əhmədov


Qubad İbadoğlu

**Ekspert Samir Əliyev** isə bildirib ki, imkanlı adamların, məmurların ödəmədiyi pulları sadə vətəndaşdan çıxırlar: "Kommunal xidmət göstərən qurumlarda şəffaflıq yoxdur. İmkanlı adamlar, məmurlara məxsus ayrı-ayrı obyektlər ödəniş etmir. Bu isə elektrik enerjisinin qalmasına səbəb olan amillərdən biridir. Həmin pulu da əhalidən çıxırlar. Bu problemlər həll olunmayınca, qiymətlər qalxmaqda davam edəcək". **Ekspert anspress-ə bildirib ki, növbəti qiymət artımı nəqliyyat sistemində olacaq:** "Dünya bazarında neftin ucuzlaşması, büdcə xərclərinin azalması səbəbindən elektrik enerjisinin qiymətinin qalxması gözlənilən idi. Çünki kommunal sektorda infrastrukturun qurulması üçün hər il dövlət büdcəsindən milyonlarla manat pul xərclənirdi. Son illərdə bu istiqamətdə milyarddan çox pul xərclənib. Artıq bu pul getdikcə azalır".

**İqtisadçı-Alim Qubad İbadoğlu** isə bildirib ki, hökumət enerji bölməsinin borclarını əhalinin üzərinə yükləyir: "Bu qərar metroda və dəmiryol nəqliyyatında gediş haqlarını bahalaşdıra bilər. Bu artımın başlıca səbəbi xüsusilə də "Azərenerji" ASC-nin getdikcə pisləşən maliyyə vəziyyəti və "Azərişıq" ASC-nin isə artan xarici borclarıdır. Hələ ötən il "Azərenerji"nin maliyyə vəziyyətinin sağlamlaşdırılması, "Azərişıq", "Azərenerji" və Dövlət Neft Şirkəti arasında qarşılıqlı ödəmələr probleminin tənzimlənməsi məqsədi ilə Nazirlər Kabinetinin müvafiq sərəncamına uyğun olaraq 2015-ci ilin 1 oktyabr tarixinə "Azərişıq"ın "Azərenerji"yə, "Azərenerji"nin Dövlət Neft Şirkətinə yanacağa görə, yaranmış borclarının ödənilməsi məqsədi ilə "Azərişıq"a 416 milyon manat məbləğində büdcə ssudasının və "Azərenerji"nin 1 oktyabr tarixinə dövlət büdcəsinə vergilər üzrə yaranmış 360 milyon manat kreditor borcunun ödənilməsi üçün "Azərenerji"yə uzunmüddətli, aşağı faizli borc verib. Bu ilin yanvar ayının 1-i tarixinə olan "Azərenerji"nin dövlət büdcəsinə borcunun məbləği 780 milyon manat və ya dövlət mülkiyyətində olan vergi ödəyicilərinin ümumilikdə borclarının 68,2 faizini təşkil edib. Məlumat üçün bildirim ki, Asiya İnkişaf Bankı (AİB) və Azərbaycan hökuməti ölkənin enerji paylama şəbəkəsinin bərpası və genişləndirilməsi məqsədilə 1 milyard dollar məbləğində investisiya proqramı üzrə anlaşma memorandumu imzalayıblar. Göründüyü kimi, hər iki dövlət təşkilatının artan maliyyə öhdəliklərinin müqabilində elektrik enerjisinin qiymətini bahalaşdıran hökumət borc yükünü əhalinin çiyninə yükləyir. Su pulunun bahalaşandan ailə büdcəsində artan kommunal xərclərin payını Tarif Şurasının elektrik enerjisinin qiyməti ilə bağlı qərarı daha da çoxaldacaq. Bu da onsuz həm manatın devalvasiyasından və həm də ərzaq inflyasiyasından sonra xüsusilə də aztəminatlı əhalinin sosial vəziyyətini xeyli ağırlaşdıracaq".

**Ekspertin sözlərinə görə, Tarif Şurasının son qərarı həmçinin, hazırda mövcud olan ikirərəqəmli inflyasiyaya yüksəldici təsir göstərəcək:** "Bu qərardan sonra istehsal, satış və xidmət xərcləri artacaq ki, son nəticədə də əlavə məsrəflər məhsulun və xidmətin satış qiymətini bahaşdıracaq. Bu qərar metroda və dəmiryol nəqliyyatında gediş haqlarını bahalaşdıra bilər. Hesab edirəm ki, hökumət elektrik enerjisinin qiymətini bahalaşdırmazdan əvvəl diferensial yanaşma ilə bağlı qərar qəbul etməli, gecə və gündüz üçün fərqli tariflər, eləcə də adambaşına 250 kilovata və ondan yuxarı elektrik enerjisi istehlak edən əhali qrupları üçün müxtəlif qiymətlər tətbiq etməlidir. Müqayisə üçün qeyd edim ki, əhali qrupu üçün Qırğızıstanda 1 kilovat saat elektrik enerjisi 1,1 sent, Azərbaycanda 4,4 sent, Qazaxıstanda 4,7 sentdir".

**Deputat Vahid Əhmədov** isə modern.az saytına açıqlamasında deyib ki, bu növbəti ərzaq bahalaşması üçün zəmindir: "Elektrik enerjisinin həm topdansatış, həm də istehlak qiymətinin qaldırılmasının obyektiv və subyektiv səbəbləri var. Birincisi, Azərbaycanda manat qıtlığı və bundan yaranan problemlər var. Neftin qiymətinin kəskin ucuzlaşması, milli valyutanın 2 dəfə devalvasiyaya uğraması hökuməti bu addımı atmağa vadar etdi. Çünki müəyyən məsələləri tənzimləmək lazımdır. Hələ 2004-cü ildə cənab prezident qeyri-neft sektorunun inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması tapşırıqlarını vermişdi. Üstündən 12 il keçib, amma biz buna nail ola bilməmişik".

**V.Əhmədov bildirib ki, bu addımı atmaqla hökumət ən asan yolu seçib:** "Ən asan yol qiymətlərin qaldırılması və yükü əhalinin çiyinlərinə atmaqdır. Mənim bu addıma görə hökumətə haqq qazandırmaq fikrim yoxdur. Çünki qiymət artımı bütün məhsullara təsir edəcək. Elə bir məhsul yoxdur ki, onun maya dəyərində elektrik enerjisi olmasın. Əhali üçün 16 faiz qiymət artımı həddindən çoxdur. Xüsusilə pensiya alanlar üçün bu, çətinliklər yaradacaq".

❑ **Röya RƏFİYEVA**

# Müxalifət işığın qiymətinin artmasına qarşı aksiya keçirməyəcək

**Tarif Şurasının 14 iyul tarixli iclasında elektrik enerjisinin qiymətində artım edildi. Cəmiyyətin bütün sferalarında bu qərar geniş müzakirələrə səbəb olub və sosial şəbəkələrdə yazılanlardan görünür ki, qərara sərt etirazlar var.**

Qeyd edək ki, sonuncu dəfə elektrik enerjisinin qiymətində artım 2007-ci ilin yanvar ayında edilib. Həmin qərardan sonra ölkə müxalifəti etiraz aksiyası təşkil etsədə, xalq onların mitinqinə gəlmədi. Yüzlərlə müxalifətçidən başqa aksiyada kimsə iştirak etməmişdi. Hazırda demokratik düşərgənin böhran keçirdiyi bir dönəmdə bu tipli aksiyaların olub-olmayacağı, xalqın onların mitinqinə qatılıb-qatılmayacağı sualları doğurur. Məsələnin görünən tərəfi odur ki, xalq müxalifətə inanmadığı üçün istənilən qiymət artımında ümid yeri demokratik düşərgə olmur.


İqbal Ağazadə: "Aksiyaları siyasi partiyalar keçirmir"


Tural Abbaslı: "Aktivlik yaradacaq gücdə olan siyasi qüvvə görmürəm"


Yadigar Sadıqov: "Əsas xalqın etiraza nə qədər hazır olmasıdır"

**Ümid Partiyasının sədri İqbal Ağazadə** aksiyalar barədə müzakirələrin aparılmasının vacibliyini vurğuladı: "Bu gün aksiyaları siyasi partiyalar keçirmir, sadəcə vətəndaşlara müraciət edir. Xalqın əhval-ruhiyyəsini, proseslərə yanaşmasını öyrənir. Siyasi partiyaların təşkilatlanmasından çox şey asılı olur. Hesab etmirəm ki, bu gün siyasi partiyalar aksiyaları təşkil etməyə, təşkilatlandırıcı funksiyaları öz üzərinə götürməyə əvvəlki illər qədər hazırdır. Bunu siyasi qurumlarla məsləhətləşmək lazımdır. Bunu uzun müddət müzakirə edib, vətəndaşlarla təmasa girib qərar vermək lazımdır. Düşünmürəm ki, bu gün aksiya keçirib, istənilən nəticəni ala bilərik. Təşkilatlanmanı fərqli şəkildə həyata keçirməliyik".

**AĞ Partiyanın başqanı Tural Abbaslı** hesab edir ki, 9 il öncə qiymətlər artırılanda müxalifət indikindən daha güclü vəziyyətdə idi: "O zaman müxalifət ən azından parçalanmamışdı, xalq arasında nüfuzu bir o qədər düşməmişdi. Amma yenə də xalqın mitinqlərdə iştirakı xeyli dərəcədə zəif olmuşdu. İnanmıram ki, müxalifət indiki vəziyyətdə qiymət artımı ilə bağlı aksiya keçirsə, xalq ona dəstək verəcək, kütləvilik olacaq. Qiymət artımını iqtisadi addımdan daha çox siyasi addım kimi qiymətləndirirəm. 1 qəpik artım əslində siyasi gedişdir. Cəmiyyətə mesaj verilir ki, biz zəif deyilik, istədiyimiz qərarı xalqa nəzərə almadan verə bilərik. Həmçinin iqtisadi böhrandan zəifləmədiyini hökumət göstərmək istəyir. Hazırda bu artımdan istifadə edib, meydanlara çıxıb, aktivlik yaradacaq gücdə olan siyasi qüvvə görmürəm. Azərbaycanın siyasi mühitində bu mümkün deyil. Normal dövlətlərdə bəlkə mümkün ola bilərdi. Hansısa bir siyasi qurumun bu məsuliyyətin altına girə biləcəyini də zənn etmirəm. Çünki müxalifət əvvəlcədən uğursuzluq yaşayacağını bilməmiş deyil. Əslində aksiyalar olmalıdır, amma cəmiyyəti silkələyəcəyinə inanmıram".

**Müsavat başqanının müavini Yadigar Sadıqov** aksiyaların olacağını istisna etmir: "Müxalifət deyəndə ki, o zaman yalnız Müsavat Partiyası etiraz aksiyalar təşkil etmişdi. Bu dəfə də, etiraz yəqin ki olacaq. Lakin hansı şəkildə, demək çətindir. Bəyanat da ola bilər, aksiya da. Müzakirə edəcəyik, vəziyyəti dəyərləndirəcəyik. Burada seçimi əslində biz etmirik. Əsas xalqın etiraza nə qədər hazır olmasıdır. 9 il öncə olduğu kimi əsasən, partiya üzvlərinin iştirak edəcəyi aksiyalar olacaqsa, effektli olmur. Xalq öz taleyinə sahib çıxmalı, bu idarəçiliyə etiraz etməlidir. Biz müsavatçıların da bu etirazların önündə getməyimizdə, məsuliyyət daşımağımızda heç bir problem yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Oqtay Əsədov Rusiyanı işğalçı adlandırdı - politoloqdan dəstək gəldi

## Şahin Cəfərli: "Azərbaycan Ukraynanın bu problemini inkar etsə..."

**Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycana səfər edən Ukrayna prezidenti Pyotr Poroşenko ilə görüşündə ad çəkməsə də, Rusiyanı dolayısı ilə işğalçı dövlət adlandırıb. Azərbaycanın Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini deyən Əsədov bildirib ki, hər iki ölkənin ərazisinin bir hissəsi işğal altındadır və beynəlxalq təşkilatların səyi nəticəsində ədalətin qələbə qazanacağına, həm Azərbaycanın, həm də Ukraynanın ərazi bütövlüyünün bərpa olunacağına ümid edir.**

Ukraynanın ərazi bütövlüyünün bərpası, işğal dedikdə heç şübhəsiz ki, burada Rusiyanın Krımı işğal etməsi nəzərdə tutulur. Parlament sədrinin açıqlamasına ekspertlərin münasibəti birmənalı deyil. Bəzi ekspertlər hesab edir ki, bu açıqlama Azərbaycan-Rusiya münasibətlərinə kölgə sala bilər. Çünki burada ölkəmizin üçüncü şəxsi üstüörtülü şəkildə Ukrayna-Rusiya arasındakı gərgin münasibətlərdə hansı dövlətin tərəfində olduğunu büruzə verir.

Rəsmi Kremlin Əsədovun fikirlərini anlayışla qarşılaya biləcəyini düşünənlər də az deyil. Çünki Azərbaycana səfər edən Ukraynanın dövlət başçısıdır. Bundan əlavə, Dağlıq Qarabağ kimi əzəli torpaqları işğal edilən Azərbaycan Krımın işğalına göz yumması o qədər də inandırıcı görünə bilməzdi.



**Politoloq Şahin Cəfərli** Əsədovun həqiqətləri dilə gətirdiyini bildirdi: "Milli Məclisin sədri Oqtay Əsədovun sözlərində qeyri-adi heç nə yoxdur. O, sadəcə, faktı konstatasiya edib. Ukrayna işğala məruz qalıb və bunu bütün ciddi dövlətlər və beynəlxalq təşkilatlar qəbul edir. Azərbaycanın bu məsələdə mövqeyi də hamıya, o cümlədən Rusiyaya yaxşı məlumdur. Azərbaycan da Ukrayna kimi separatizm və ərazi bütövlüyünün pozulması problemi ilə üzləşib. Yəni Ukrayna ilə dərdimiz ortaqdır, eyni problemdən əziyyət çəkirik. Bu ortaq problem iki dövlətin mövqeyini yaxınlaşdırır və eyniləşdirir. Təsadüfi deyil ki, hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Azərbaycan Krımın ilhaqından sonra bu məsələ ilə bağlı BMT Baş Assambleyasındakı ilk səsvermədə Ukraynaya dəstək verib. Düzdür, beynəlxalq qurumlarda bu məsələyə dair sonrakı səsvermələrdə Azərbaycan bir qədər ehtiyatlı mövqe tutub və Rusiyanı qıcıqlandırmamaq üçün bu ölkə əleyhinə Ukraynanın təqdim etdiyi qətnamə layihələrinə dair bəzi səsvermələrə qatılmayıb. Amma hər halda, rəsmi Bakının mövqeyi bəllidir. Azərbaycan Ukraynanın bu problemini inkar etsə, həm də özünü, öz analoji problemini inkar etmiş olar. Ona görə də, heç kim rəsmi Bakıdan əks mövqe gözləməməlidir. Elə Ukrayna prezidenti Pyotr Poroşenkonun Azərbaycana rəsmi səfəri də Ukraynaya siyasi dəstək mənasına gələn hadisədir. Üstəlik, həm bu səfər zamanı, həm də ondan əvvəl iki ölkə arasında iqtisadi sahədə əldə olunan razılaşmalar da Ukraynaya dəstək xarakterlidir. Məsələn, Azərbaycan Ukraynada istehsal olunan 10 ədəd "An-178" nəqliyyat təyyarəsi alacaq. Həmin təyyarələrdən birinin qiymətinin təxminən 40 milyon dollar olduğunu nəzər aldıqda, bunu Azərbaycanın Ukraynaya çox mühüm dəstəyi kimi qiymətləndirmək mümkündür. Yeri gəlmişkən, bu təyyarələrin Azərbaycanda birgə istehsalının təşkili barədə razılıq da çox önəmlidir. Bütün bunlar perspektivdə iki ölkə arasındakı münasibətlərin daha da inkişaf edəcəyini göstərir".

**Ş.Cəfərli Ukraynanın daim Azərbaycanın yanında olduğunu qeyd etdi:** "Ukrayna hələ işğal və separatizm problemi ilə üzləşmədiyi vaxtlarda Azərbaycanın ərazi bütövlüyünə hər zaman dəstək verib. GUAM daxilində ölkələr bu məsələlərə vahid yanaşma ortaya qoyublar. Rusiya əlbəttə ki, Azərbaycan-Ukrayna əlaqələrinin güclənməsindən məmnun qala bilməz. Amma bu, o demək deyil ki, Moskva Bakıya təzyiq göstərərək onu Ukrayna ilə fəal əməkdaşlıqdan vaz keçirməyə çalışacaq. Moskva onun ünvanına açıq ittihamlar səslənmədikcə və hansısa ölkələrin siyasəti açıq şəkildə Rusiyaya qarşı yönəlmədikcə, adətən sərt reaksiyalar vermir. Azərbaycanın Ukrayna ilə əməkdaşlığı Rusiyaya qarşı yönəlməyib. Kremldə bunu hər halda, görür və anlayırlar. Rəsmi Bakı da öz addımlarını hesablayaraq, götür-qoy edərək, diqqətlə atır. Ona görə də mən Moskvadan sərt reaksiya gözləmirəm".

❑ **Cavanşir ABBASLI**

# Ölkədə ən çox korrupsiyaya uğrayan sahə - bank sektoru...

## Baş Prokurorluqda 6 ayın cinayət statistikası açıqlandı; Eldar Mahmudovla əlaqəli xüsusi istintaq qrupu fəaliyyət göstərir

**İyulun 14-də Azərbaycanın Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində korrupsiyaya qarşı mübarizə sahəsində 2016-cı ilin birinci yarımilində görülmüş işlərlə bağlı mətbuat konfransı keçirib. Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev bildirib ki, son altı ayda Baş İdarədə 1264 vətəndaş qəbul edilib. Baş İdarənin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 3254 müraciət daxil olub, həmin müraciətlərin 14-ü üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb.**



"2016-cı ilin birinci yarım ili ərzində vətəndaşların 5327 müraciətinə baxılıb, həmçinin 146 cinayət xarakterli material araşdırılıb. Həmin materialların 97-i üzrə cinayət işi başlanıb, 49 material üzrə digər prokuror təsir aktları tətbiq edilməklə 60 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilib".

Həmin dövrdə Baş İdarədə əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 6, habelə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 15 olmaqla cəmi 21 cinayət işi başlanıb. 2016-cı ilin birinci yarısında dövlət və özəl sektorda çalışan 143 vəzifəli şəxs barəsində 100 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. O, qeyd edib ki, həmin cinayət işlərindən 48 şəxs barəsində 25 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 30 şəxs barəsində 27 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dələduzluq, 25 şəxs barəsində 17 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və aşma, 7 şəxs barəsində 7 iş rüşvət alma, 7 şəxs barəsində 4 iş rüşvət vermə, 3 şəxs barəsində 2 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 2 şəxs barəsində 1 iş vəzifə saxtakarlığı, 21 şəxs barəsində 17 iş isə digər faktlarla əlaqədar olub. Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 9 milyon 785 min manat ziyandan istintaq müddətində 3 milyon 151 min manat ödənilib, qalan ziyanın ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülüb.

**K.Əliyevin sözlərinə görə, bu il məhkəməyə göndərilən 100 işdən ən çoxu bank sektoru ilə bağlı olub:** "Bank sektoru ilə bağlı istintaqı aparılan 37 cinayət işi məhkəmələrə göndərilib. Digər cinayət işlərinin 16-sı özəl sektor, 13-ü tikinti sektoru, 11-i ticarət, 8-i yerli icra hakimiyyəti orqanlarının əməkdaşları ilə bağlı, 5-i bələdiyyələr, 4-ü səhiyyə, 3-ü Əmək və əhalinin sosial müdafiəsi nazirliyi, 3-ü təhsil, 3-ü enerji sahəsi, 3-ü nəqliyyat, 4-ü FHN, 1-i daxili işlər orqanları ilə bağlı olub".

Bu il Azərbaycanda 41 vəzifəli şəxs barəsində axtarış elan edilib. Həmin şəxslərin 12-si yerli, 29-u beynəlxalq axtarışa verilib. Axtarışda olanlardan 9-u daxili işlər orqanları tərəfindən tutularaq istintaqa təhvil verilib.

Xatırladaq ki, 2015-ci ildə 69 vəzifəli şəxs korrupsiya ittihamı ilə axtarışa verilmişdi, onlardan cəmi 2-si həbs edilib.

Mətbuat konfransında iştirak edən Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Vüsal Hüseynov korrupsiyaya qarşı mübarizə sahəsində parlamentin rolu, səmərəli antikorrupsiya qanunvericiliyinin formalaşdırılması üçün həyata keçirilən tədbirlərdən danışdı. Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi vəzifəsini icra edən Kamal Cəfərov isə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı", bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi və institusional islahatların davam etdirilməsi barədə məlumat verib. Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri də korrupsiya ilə bağlı durumdan danışıb.

**Konfransda jurnalistlərin sualları da cavablandırılıb.**

"Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində keçmiş MTN rəhbərliyi, Eldar Mahmudovun korrupsiya əməlləri araşdırılırmı" sualına K.Əliyev cavab verib. Deyib ki, Baş Prokurorluq yanında keçmiş MTN rəhbərliyinin işlərini araşdıran xüsusi istintaq qrupu fəaliyyət göstərir. Onun sözlərinə görə, istintaq qrupu sıx qrafik əsasında işləyir: "Keçmiş MTN rəhbərliyinin bütün korrupsiya faktları və digər cinayətləri həmin qrup tərəfindən araşdırılır".

11 il bundan əvvəl, 2005-ci ildə prezident "Gəlir bəyannaməsi haqda" qanunu imzalayıb. Nazirlər Kabinetinə vəzifəli şəxslərin gəlir bəyannamə formasının nümunəsini hazırlamaq üçün 3 ay vaxt verib. Ancaq, 11 il keçsə də, prezidentin tapşırığı hələ də yerinə yetirilməyib. Bu hərəkətsizliyə görə Nazirlər Kabineti rəsmiləri barəsində araşdırma aparılıbmı sualına verilən ümumi cavabdan belə aydın olub ki, Nazirlər Kabineti vəzifəli şəxslərin gəlir bəyannaməsinin nümunəsini hələ də hazırlamayıb.

Dərslik çapı ilə əlaqəli tenderlərdə tirajın az göstərilməsi, 120 min şagird üçün nəzərdə tutulan dərsliklərin 40 min tirajla çap olunması haqda şübhə doğuran hallarla bağlı araşdırmaların aparılıb-aparılmaması haqda sualı Baş İdarə rəisi K.Əliyev cavablandırıb. Deyib ki, bu məsələ ilə bağlı müraciətlər olacağı təqdirdə müvafiq araşdırmalar aparılacaq.

K.Əliyev Xəzərsahili ərazilərin hasara alınması və yerli icra hakimiyyəti orqanlarının buna göz yumaraq prezidentin imzaladığı 18 dekabr 2015-ci il "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqda" fərmanından irəli gələn tələblərin pozulması məsələsinə də münasibət bildirib. Həmin fərmana görə 100 metrdən bir 6 metr enində dəniz sahilinə yol, dəniz sahili boyu 30 metrlik zolaqda heç bir tikintiyə icazə verilməz. K.Əliyev deyib ki, bu məsələ haqda məlumatsızdırlar və məlumat olacağı təqdirdə müvafiq araşdırmalar aparılacaq.

**Baş idarə rəisi təmsil etdiyi qurumda çalışanların əmək haqları ilə bağlı suala cavab olaraq bildirib ki, təmsil etdiyi qurumun əməkdaşları digər prokurorluq orqanları əməkdaşlarının əmək haqlarından 50 faiz artıq əmək haqqı alırlar.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 153 (6474) 16 iyul 2016



# Pokemon bizdən oğurlanıb

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət büdcəsini doldurmaq üçün işıq pulunu 1 qəpik qaldırmaq çox yaxşı oldu. Azərbaycan həqiqətlərini işıqlandırmaq üçün bizim çoxlu qara qəpiklərə ehtiyacımız var, SOCAR əvvəlki pulu vermir. Yeri gəlmişkən, dünən imtahanın pullu giriş-çıxışından yazarkən ağlıma gəlmişdi ki, imtahan otaqlarının işıq pulunu da abituriyentlərdən toplamağı təklif edim, nəsə şeytan azdırdı, yazmadım. Hökumət görünür fikirdən iy çəkirmiş.**

İy demişkən... Dünyada çoxlu ədalətsizlik baş alıb gedir. Ermənilər dolmamızı oğurlayır, yaponlar oyunumuzu. Buna haçan son qoyulacaqdır? Xaricdəki diplomatlarımız da yatırlar. Başa düşürəm, əsas məsələ Qarabağ dərdimizdir, ancaq azərbaycanlıların başqa hüquqlarına, örnək üçün, müəllif hüquqlarına hörmət qoyulmalıdır. İzah edim, sən də bax.

Hazırda bütün dünyada "Pokemon Qo" adlı bir mobil telefon oyunu geniş yayılıbdır. Oyunu qayıran yaponların "Nintendo" şirkətidir. Qısa mahiyyəti belədir ki, şirkət cürbəcür pokemonlar (bunun nə olduğunu qısaca belə izah edə bilərəm: gözünüzün qabağına Çeburaşka ilə Balıq Hafizin, yaxud Elgizlə Zaurun saysız şəkildə düzəldilmiş, sintez edilmiş modellərini gətirin) hazırlayıb virtual aləmə buraxır. Adamlar da telefonlarını götürüb gəzirlər, pokemonları "tuturlar", döyüşdürüb xal qazanırlar və sairə.

Açıq, həyasız plagiatdır. Yapistlərin tam ixtiyarı var yaponları məhkəməyə verib udsunlar. Çünki bu "Pokemon Qo" oyununun real həyatdakı forması kiçik fasilə ilə hardasa 47 ildir azərbaycanlıların təpəsində sınaqdan çıxarılır, çox yaxşı da oyun gedir.

Biz azərbaycanlılar bu rejim üçün pokemon deyiliksə bəs nəyik? Onlar bizi ora-bura qovalayır, tutub ciblərinə qoyurlar. Hansı rəis, prokuror, icra başçısı daha çox pokemon-azərbaycanlı toplasa onun hörməti artıq olur. Gizlənməyin xeyri yoxdur. Əvvəl-axır hamı ilişir.

Sözgəlişi, mobil telefon texnologiyasının milli "Pokemon Qo" oyunumuzda istifadəsi sahəsində də yapistlər "Nintendo" şirkətini qabaqlayıbdır. Özü də 13 il! Yadınıza gəlirsə, 2003-cü ilin seçkilərindən sonra "Azadlıq" meydanına yaxın ərazilərdə gizlənmiş müxalifətçi-pokemonları mobil telefon şirkətləri bir şapalağa hökumətə satdılar. Neçə Pikaçu ələ keçdi, bəzi guya pokemon olmaq istəməyən və oyun rejiminə, rejimin oyunlarına müqavimət göstərən Supermen və Spayderman-lar isə türmədən çıxandan sonra Piçu oldular.

"Pokemon Qo" oyununda təkcə pokemonları yox, onların yumurtalarını da tapıb toplayırsan. Bu da bizim milli yapist pokemonçuluqda tətbiqini tapmış şeydir. Görürsən hakimiyyət ora-bura maraqlı yumurtalar düzür, oyunçular həmin yumurtaları yığıb əsarətə düşürlər.

Milli pokemonlarımızı toplamaq üçün ölkədə çoxlu bazalar var. Misal üçün, bəzi pokemonları Kürdəxanı türməsinə yığıblar, bəzilərini KİVDF fonduna. Elə pokemonlar var məktəbdə dərs deyir, eləsi var xəstəxanada adam ayağı kəsir. Yolda maşınla durub başqa pokemonları qovub tutan pokemonlar da var. Adı elə YPX-dir - Yol Pokemon Xidməti.

Daha çox pokemon toplayan icra başçısının nazir olmaq şansları artır. Nazirlər də tabeliklərindəki pokemonları dalaşdırıb oyunun qurucusunun gözündə şirin olurlar, xal toplayırlar.

Uzun sözün qısası, demək istəyirəm yaponlar Beyləqanda 90 min dollarlıq məktəb tualeti tikməklə bizim başımızı qatmasınlar. Oyunumuzu oğurlayıblar, zəhmət çəkib pulunu versinlər, çünki yuxarıda apardığım təhlildən göründüyü kimi, bu "Pokemon Qo" tamamilə Azərbaycan ideyasıdır, Azərbaycan modelidir. "Azərbaycan dünyaya Günəş kimi doğacaq" şüarının mənası da burada gizlənmişdir, çünki Yaponiya gündoğar ölkə kimi tanınır. Ancaq belə oğurluq, əliəyrilik eləyəndən sonra adam onlara istər-istəməz "Görüm sizi gün işığına həsrət qalasınız" demək istəyir.

**Əgər lisenziya pulunu versələr nə qədər işıq pulu eləyər.**

## "İşğalçıya qarşı məcbur etmə mexanizmləri hazırlanır"

# Kritik güzəştlər dönəmi bitir - müharibə təhlükəsi yenə qapıda

### Moskvada Kerri-Lavrov danışıqlarında Qarabağ mövzusu ilk dəfə olaraq terrorla mübarizə və Suriya böhranı ilə yanaşı qoyuldu; güc mərkəzlərinin də narahatlığı artır; rusiyalı nüfuzlu ekspert: "Müharibədə məğlubiyyət Sərksiyan-Köçəryan klanının sonunun başlanğıcı olacaq..."

**Dünyada terror təhlükəsinin böyüməsi qlobal siyasi güc mərkəzlərinin Dağlıq Qarabağ məsələsinə də diqqətini artırıb. Bunu dünən - Fransada növbəti müdhiş terror aktının baş verdiyi gün Moskvada Rusiya və ABŞ xarici siyasət idarələri başçıları Sergey Lavrov və Con Kerri arasında aparılmış danışıqlardan da görmək olardı.**




Belə ki, Kerrinin Moskva səfərində üç əsas mövzu diqqətə olub: terrorla mübarizə, Suriya böhranı və Qarabağ. Məsələ ondadır ki, Dağlıq Qarabağa mövzusu öncə Moskva-Vaşinqton müzakirələrinin gündəliyində olmayıb. Bu münaqişənin də diqqət mərkəzinə gətirilməsi təbiidir əslində. Ən azı ona görə ki, region İŞİD-in meydan suladığı bölgəyə çox yaxındır və daha bir qaynar müharibə ocağı terrorçuların regional və beynəlxalq sülhə qarşı əl-qolunu daha da aça bilər.

O üzdən məntiq diktə edir ki, bir an öncə heç olmasa müharibəni önləyəcək real addımlar atılsın, savaş riskləri minimuma ensin. Bu da müstəsna olaraq Ermənistanın nə dərəcədə konstruktiv mövqe tutmasından və əlbəttə ki, Rusiyanın ona təzyiqlərindən asılıdır. Əfsus ki, rəsmi İrəvan hələ ki, bundan uzaqdır, hətta o, yeni kövrək sülh prosesini pozmaq davranışı nümayiş etdirir. Bu isə yeni və daha dağıdıcı müharibə ehtimalını gücləndirir.

***

Hadisələrin belə mümkün inkişaf ssenarisi haqda son günlər bir sıra nüfuzlu analitik mərkəzlər *("Bloomberg", "Stratfor")* artıq xəbərdarlıqlar edib. Ciddi ekspert və siyasi analitiklərdən də Ermənistan tezliklə ipə-sapa yatmazsa, müharibə xəbərdarlıqları gəlməkdə davam edir. Onlardan biri də tanınmış rusiyalı tarixçi alim, politoloq Oleq Kuznetsovdur.

"Qarabağ konflikti bütün qlobal və regional oyunçular tərəfindən mümkün imtiyazların alınması baxımından artıq özünü bütünlüklə tükədib", - deyə analitik Bakıda keçirilən "Cənubi Qafqaz" Politoloqlar Klubunda etdiyi çıxışı zamanı söyləyib. Onun sözlərinə görə, istənilən münaqişə hansısa potensiala malikdir və Qarabağ münaqişəsi də bu potensialı xərcləyib: "Tərəflərdən heç biri - nə Azərbaycan, nə Ermənistan, nə də xarici oyunçular konflikt faktına görə hansısa qlobal strateji imtiyaz ala bilməzlər. Kim nəsə almaq istəyirdisə, artıq onu alıb".

**Ekspert Rusiyanın məsələni heç vaxt Qarabağın suverenliyi və işğal edilən ərazilərin Ermənistana məxsusluğu şəklində qoymadığını diqqətə çatdırıb:** "Rusiyanın mövqeyi həmişə birmənalı olub - hər halda ən azı Vladimir Putin hakimiyyətdə olduğu dönəmdə. Azərbaycanın ərazi bütövlüyü şübhə altına alınmır. Məsələ başqa şeydədir: sülh yolu ilə konflikti necə həll eləməli? Ermənistanın mövqeyi belədir: nə qədər ki, siz bizi məhv etməmisiniz, biz bu torpaqlardan çıxmayacağıq. Azərbaycanın mövqeyi isə qəti və ardıcıldır: torpaqlarımızı qaytarın! Bu, tamamilə anlaşılan, təbii və qanuni bir mövqedir. Ancaq tərıflərin mövqeləri bir-birinə diametral zidd olduğundan, beynəlxalq qərarları Ermənistanın yerinə yetirməsi üçün ona qarşı hansısa məcburetmə mexanizmləri hazırlanır".

**Bu kontekstdə Serj Sərkisyanın Livan telekanalına söylədiyi "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində ola bilməz" fikrini təhlilçi Rusiyanın siyasi mövqeyinə zidd hesab etdiyini bildirib.** "Başa düşmək lazımdır ki, Sergey Lavrov yüksək çinli məmurdur və öz mövqeyini ortaya qoymaqla o, həm də Rusiya siyasi isteblişmentinin mövqeyini ifadə edir" - Kuznetsov vurğulayıb.

Onun qənaətincə, Ermənistanın məsələdə mövqeyi kifayət qədər sabit deyil və "heç də həmişə adekvat olmayan insanın davranışına bənzəyir". Analitik ardınca xatırladıb ki, Ermənistan özünü təmin eləmək gücdə deyil və müstəsna olaraq xarici dotasiyalar hesabına yaşayır: "Minsk Qrupu həmsədrləri adlandırdığımız ABŞ, Fransa və Rusiya da Ermənistanın donor-ölkələridir. Ona görə də onlar Ermənistanın dövlət kimi qalmasında maraqlıdır. Bununla belə, hamı başa düşür ki, Qarabağa münaqişəsi sərmayələr üçün zərər və təhlükə mənbəyidir. Müharibə heç kimə lazım deyil. O üzdən dinc məcburetmə mexanizmləri üzərində iş gedir".

**Politoloqun fikrincə, problemin nizamlanması Ermənistan rəhbərliyinin dəyişməsinə gətirə bilər:** "Ermənistanda rejim dəyişikliyi konfliktin həllinin yan nəticəsi kimi ortaya çıxacaq. Bunun ardınca Ermənistan avtoritar dövlətdən, hərbi xunta dövlətindən, hərbi cinayətkarların iqtidarda olduğu dövlətdən demokratik dövlətə çevrilmə şansı qazanacaq. Bu ölkədəki rejim - Qarabağdakı erməni separatçılarının səhra komandirlərinin rejimidir. Üstəlik, dəfələrlə dediyim ki, "Qarabağ klanı" Ermənistanı da işğal edib. Mən əmindən də çox əminim ki, konfliktin həlli ilk növbədə Ermənistanın köklü əhalisinin xeyrinədir".

Rusiyalı tarixçi alim hesab edir ki, müharibə vəziyyəti Köçəryan-Sərkisyan klanı üçün hakimiyyəti, mümkündür ki, həm də fiziki varlığı saxlamaqdan ötrü yeganə vasitədir: "Müharibə onların mövcudluğunun mənasıdır. Onları məhz müharibə hakimiyyətə gətirib və müharibədə məğlubiyyət də onların sonunun başlanğıcı olacaq. Mən yenə əmindən çox əminəm ki, şəxsən Serj Sərkisyan öz siyasi hakimiyyəti naminə ermənilərin həyatını xərcləyəcək".

Bundan əlavə, onun fikrincə, müharibə Qarabağdakı erməni əhalisinin bütünlüklə çıxıb getməsi ilə nəticələnəcək: "Hansı proses ki, aprel döyüşləri zamanı özünü göstərmişdi. Əgər münaqişə qeyri-dinc yolla həll olunsa, o zaman Dağlıq Qarabağda erməni qalmayacaq, onların yerinə isə azərbaycanlı əhali qayıdacaq. Belə vəziyyətdə isə konfliktin dinc həlli mənasını itirir - o cümlədən öz müqəddəratı müəyyən eləmə və icmaların birgə yaşaması da. Müvafiq şəkildə nizamlama prosesinin anlamı qalmır".

**"Əldə olunmuş anlaşmalara əməl eləməsi üçün İrəvanı məcbur etmə mexanizminə alternativ yoxdur" - çıxışının sonunda rusiyalı nüfuzlu analitik əlavə edib.**

❑ Siyasət şöbəsi

# Lavrov getdi, Çavuşoğlu gəldi-Qarabağla bağlı böyük proses başlayıb

## Türkiyənin baş diplomatından Bakıda mühüm Qarabağ bəyanatları; Minsk Qrupunun həmsədrləri gələn həftə Ankaranı prosesla bağlı məlumatlandırmağa gedəcəklər

**İyulun 15-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycana səfər edib. Türkiyə XİN başçısı əvvəlcə azərbaycanlı həmkarı ilə bir araya gəlib. İkitərəfli görüşdən sonra mətbuat üçün keçirilən brifinq zamanı nazirlər Qarabağdan danışıblar. "Dağlıq Qarabağ münaqişəsi sülh və diplomatiya vasitəsilə həll edilməlidir. Təhrikedici, atəşkəsi pozmağa yönəlik addımların faydası olmadığını aprel ayında gördük".**

Bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı ilə keçirdiyi birgə mətbuat konfransında təmas xəttində Ermənistan tərəfindən törədilən təxribatlarla bağlı suala cavabında deyib. (APA) O qeyd edib ki, Ermənistan bu cür təhriklərdən çəkinməlidir: "Türkiyə münaqişənin sülh yolu ilə həllinə dəstəyini davam etdirəcək. Rusiya ilə münasibətlərin normallaşması bu məsələyə mütləq öz faydasını verəcək. Rusiyanın xarici işlər naziri Sergey Lavrova da dediyim kimi, bundan sonrakı prosesdə Türkiyə bu cür təşəbbüsləri dəstəkləyəcək".

M.Çavuşoğlu Minsk Qrupunun həmsədrlərinin bazar ertəsi Ankaraya gələcəyini açıqlayıb. "Onlarla da görüşəcəyik və Azərbaycanın qəbul edəcəyi formulları dəstəkləməyə davam edəcəyik. Artıq Rusiya ilə münasibətlər olduğu üçün bu məsələni həm prezidentlər səviyyəsində, həm də xarici işlər nazirləri səviyyəsində Rusiya ilə müzakirə etməyə davam edəcəyik"-deyə, Çavuşoğlu əlavə edib.

**XİN başçısı bildirib ki, aprel hadisələrinin təkrarlanmaması vacibdir:** "Münaqişənin sülh yolu ilə həlli istiqamətində atılan müsbət addımları dəstəkləyirik".

**Azərbaycan XİN başçısı Elmar Məmmədyarov da rəsmi Bakının mövqeyini açıqlayıb**. "Danışıqları daha çox intensivləşdirməliyik"-deyən XİN başçısı cəbhədəki son hadisələrə diqqət çəkərək bildirib ki, Ermənistan yenə təmas xəttində təxribatlar törətməyə çalışır: "Bu hadisələrə son qoymaq üçün diplomatik vasitələrdən istifadə etmək lazımdır. Çünki baş verən xoşagəlməz hadisələr göstərir ki, danışıqların intensivləşməsini istəməyən qüvvələr mövcuddur. Ermənistan əsgərləri təmas xəttində qaldıqca, bu cür xoşagəlməz hadisələr baş verməyə davam edəcək".

**E.Məmmədyarov Azərbaycanın mövqeyini M. Çavuşoğluna çatdırdığını söyləyib:** "İnanıram ki, danışıqların intensiv şəkildə davam etdirilməsi nəyəsə nail olmağa imkan verəcək".

Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini prezident İlham Əliyev də qəbul edib. Azərbaycan və Türkiyənin bundan sonra da bir-birinin yanında olacağını deyən Azərbaycan prezidenti Mövlud Çavuşoğlunun səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində növbəti addım olacağına əminliyini ifadə edib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu isə prezident İlham Əliyevin NATO-nun Varşava zirvə toplantısında iştirakının və keçirdiyi görüşlərin önəmini vurğulayıb. O, Türkiyə ilə Rusiya arasında əlaqələrin düzəlməsində verdiyi güclü dəstəyə görə ölkəsi və xalqı adından prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Qardaş ölkənin baş diplomatının səfərinin məhz Rusiya XİN başçısı Sergey Lavrovun səfərindən sonraya təsadüf etməsi diqqətdən qaçmadı. Hətta Rusiyadan da bu məsələyə reaksiya verildi. "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda hansısa xoşagəlməz sürprizin olacağından söhbət gedə bilməz". Bunu keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova deyib.



**Jurnalistin münaqişənin nizamlanması ilə bağlı danışıqlar prosesinin gizli saxlanılmasının Ermənistan və Azərbaycan cəmiyyətləri üçün xoşagəlməz sürprizlə nəticələnə biləcəyi və bunun təhlükəli olması ilə bağlı sualını cavablandıran Rusiya XİN sözçüsü qeyd edib ki, müzakirə olunan məsələlərin gizli saxlanılmasında qorxulu heç nə yoxdur:** "Əgər danışıqlar prosesi tərəflərin iştirakı ilə getməsəydi, o zaman sizin dediyiniz kimi, təhlükəli olardı. Danışıqlar prosesində dövlət başçıları, nazirlər, hər iki tərəfdən ekspertlər iştirak edir. Onların hər şeydən xəbəri var. Ona görə də, bu prosesdə xoşagəlməz sürprizdən söhbət gedə bilməz". **M.Zaxarova bildirib ki, qorxulu məqam danışıqlar prosesinin razılıq olmadan nəticələnməsi olardı:** "İndi fəal danışıqlar gedir. Bu, uzun sürən bir prosesdir. Qorxulu məqam danışıqlar prosesinin pozulmasıdır. İndi çox vacib məqamdır. Bütün komanda ümumi nəticənin əldə edilməsinə nail olmalıdır. Biz Bakıda və Yerevanda olduq. Küçədə sadə insanlar bizə yaxınlaşıb, fikirlərini bildirirdilər, onlar daha qan tökülməsini, insan itkilərinin olmasını istəmirlər. Bizim də əsas məqsədimiz məhz budur". Erməni jurnalistin Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakıya səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin müzakirəsinin danışıqlar prosesinə necə təsir edəcəyi ilə bağlı sualına M.Zaxarova belə cavab verib: "Bu sualın çox asan bir cavabı var. Hər hansı konstruktiv kömək Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin xeyrinədir".

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, Türkiyə Dağlıq Qarabağ probleminin həllində Azərbaycan qədər maraqlıdır: "Lakin Türkiyənin Qarabağ ixtilafının həllində marağını şərtləndirən digər amil də var və bunu Azərbaycan ictimaiyyəti, bizim təhlilçilərimiz çox vaxt diqqətdən qaçırır. Bu amil ondan ibarətdir ki, Qarabağ məsələsi, Ermənistan və Azərbaycan arasındakı konflikt Türkiyənin xarici siyasətinə problem yaradan faktorlardan birinə çevrilib. Türkiyənin Ermənistanla münasibətləri yaxşılaşdırmaq, sərhədləri açmaq niyyəti sirr deyil. Ankara bununla uzun illərdir beynəlxalq arenada onun üçün başağrısına çevrilmiş "erməni soyqırımı" basqısından xilas olacağını düşünür. Dünyanın müxtəlif ölkələrindəki erməni lobbiləri "soyqırım" məsələsi ilə yanaşı, başqa sahələrdə də Türkiyəyə problemlər yaradır. Ermənistanla və erməni diasporu ilə barışıq nəticəsində Türkiyə bu problemi də neytrallaşdıra biləcəyini hesablayır. Bundan başqa, Ermənistanla əlaqələrin bərpası Türkiyənin bu ölkə ilə həmsərhəd olan vilayətlərinin iqtisadi həyatında az da olsa, canlanma yarada bilər. Hər il on minlərlə erməni turistin Türkiyəyə axışması perspektivi də var. Qarabağ münaqişəsi davam etdikcə, Türkiyə Ermənistanla münasibətlərdə hər hansı addım ata bilmir. Sürix protokollarının imzalanmasından sonra baş verənləri gördük. Həm Azərbaycanla münasibətlərdə problem yarandı, həm də Türkiyə hökuməti daxildə güclü tənqidlərlə üzləşdi. Ona görə də Ankara bu dəfə ehtiyatlı hərəkət edir və regional siyasətini Azərbaycan rəhbərliyi ilə məsləhətləşmə, yaxın dialoq şəraitində həyata keçirir. Lakin ATƏT-in Minsk Qrupunun üzvü olmasına baxmayaraq, Türkiyənin münaqişənin nizamlanmasına təsir imkanları çox deyil. Ankara həll prosesində demək olar ki, iştirak etmir. Proses Rusiyanın dominantlığı, ABŞ və Fransanın iştirakı ilə aparılır. Lakin Türkiyə prosesin gedişi barədə Azərbaycan rəhbərliyi tərəfindən məlumatlandırılır".

Qeyd edək ki, Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ABŞ dövlət katibi Con Kerri arasında görüşdə də iki ölkə arasındakı münasibətlər, Suriyadakı vəziyyət, Ukrayna böhranı ilə bərabər, Dağlıq Qarabağ münaqişəsinin həlli də müzakirə mövzusu olub. Qarabağ məsələsinin ABŞ və Rusiya arasında əsas müzakirə mövzularından biri olduğu məqamda Türkiyənin kənarda qalması anlaşılan olmazdı. Bu mənada M.Çavuşoğlunun Bakıdakı görüşləri və Qarabağ məsələsində Azərbaycanın yanında olduğunu bir daha bəyan etməsi qardaş dəstəyinin bariz nümunəsi, həm də digər güclərə mesajdır. Son illərdə həmsədrlərin Qarabağla bağlı Türkiyəni məlumatlandırmaq istəyi barədə faktı xatırlamaq çətindir. Bu mənada yeni gəlişmə kifayət qədər ciddi prosesin başlamasından xəbər verir.

❑ **Elşad PAŞASOY**

# Sərkisyanı Qarabağda qarşılayası "dron"



**Hüseynbala SƏLİMOV**

**15 iyulun absurdu Ermənistan Xarici İşlər Nazirliyinin Parisdə törədilmiş terroru pisləyən bəyanatıdır. Özgə torpaqlarında yarandığı gündən terroru dəstəkləyən bir dövlətin terrorçuluğu lənətləməsi həyasızlıq nümunəsidir.**

Fransada dinc insanlara terror olunan gecə Ermənistan ordusu işğal altında saxladığı ərazilərdən atəş açaraq bir zabitimizi qətlə yetirdi. Bunun özü terror deyilmi?! Baş leytenant Səyyad Məmmədov cəmi 28 il yaşamışdı. Atasını çoxdan itirdiyindən özündən kiçik bacısını və qardaşının əziyyətini də çəkməli olubmuş. Bəlkə bundan sonra rahat yaşamağı düşünürmüş. Arzuları yarıda qırılanlarsa minlərlədir...

Fransadakı terroru lənətləyən Serj Sərkisyan Qarabağa gəlməyə hazırlaşır. Artıq bu kimi xəbərlər dünyanın gözündə adiləşib, nə beynəlxalq qanunlar xatırlanır, nə BMT qətnamələri, nə Avropa Parlamentinin tələbləri.

Nəhayət, dünya dövlətləri Sərkisyana "sənin Qarabağda nə ölümün var" sualını verməli və onun qarşısında qəti tələb qoymalıdırlar. ATƏT sədri ötən ay bölgəyə səfər etdi, ancaq Xankəndinə getmədi, çünki Azərbaycanın ərazi bütövlüyünə hörmət etdi. Sərkisyan isə nə həmsədr dövlətlərə, nə ATƏT-ə, nə də elə ağası Rusiyanın sülh təşəbbüslərinə məhəl qoymadığını bir daha nümayiş etdirir. Son iki ayda ikinci dəfədir Qarabağa gəlir.

Bu yaxınlarda İŞİD liderlərindən "Ömər Şişani" adı ilə tanınan Tarkan Batirașvili məhv edildi. ABŞ onun başına 5 milyon dollar qoymuşdu. Sişani indiyədək nə qədər insanın məhvinə bais olub, deyə bilmərəm. Amma Sərkisyanın başçılığı ilə Qarabağda qırılan azərbaycanlı dinc əhalinin, hərbçilərin sayı bəllidir. Təkcə itkin düşənlərimizin sayı 4 minə yaxındır. Hələ Xocalı soyqırımı var. Təəssüf ki, bu qanlar Sərkisyanın başına pul qoymaq üçün bəs etmir hələlik...

ABŞ Azərbaycan ərazilərini işğal etmiş bir ölkənin başçısının başına pul qoymaq əvəzinə, qonşu ölkənin ərazilərini ilhaq etmiş ölkəyə milyonlarla yardım ayırır! Bu faktın özünə bəraət qazandırmaq sadəcə, mümkünsüzdür. Con Kerrinin Putinlə Qarabağ müzakirəsinə boş verin, ənənəvi siyasət davam edir. ABŞ Senatı 2017-ci il üçün Azərbaycana 10,9 milyon dollar, Ermənistana 24,1 milyon dollar həcmində maliyyə yardımının ayırılması haqda sənədi təsdiqləyib. Rusiya ermənyə kredit vəd edirsə, Amerika birbaşa yardım ayırır.

Əgər 1992-ci ildə ABŞ Dövlət Departamenti Azərbaycanla bağlı sanksiya qərarı verdiyi halda, Ermənistana 100 milyon dollar (!) yardım göstərməsəydi, elə həmin il Xankəndinə çatmaqda olan ordumuz məsələyə nöqtə qoyacaqdı, heç mənasız danışıqlara da ehtiyac qalmazdı. Üstəlik, bu qədər itkilərimiz olmazdı. Deməli, Qarabağdakı separatçıların, terrorçuların kökünü kəsməyə həm də bizim antiterror koalisiyasında müttəfiqimiz olan ölkə imkan verməyib.

Azərbaycan XİN təkcə Paris terrorunu lənətləməklə işini bitmiş saymamalıdır: **a)** Elə bu gün ordumuzun sabitinin erməni terrorçuları tərəfindən öldürülməsi faktını dünyaya bəyan etməli; **b)** Serj Sərkisyanın Qarabağa qanunsuz səfərinin qarşısının alınması üçün beynəlxalq təşkilatların təcili müdaxiləsini istəməli; **v)** Əks təqdirdə baş verənlərə görə Azərbaycanın məsuliyyət daşımadığını nəzərə çatdırmalıdır. Təbii ki, Bakı bundan sonra məsələyə ordumuzun qarışacağı barədə son xəbərdarlığını da etməlidir.

1991-ci ilin 20 noyabrında Qarakənd səmasında Azərbaycanın rəhbər şəxsləri ermənilər tərəfindən qətlə yetirildi. Onlar danışığa gedirdilər. Bundan sonra dəfələrlə belə terror hadisələri olub. Azərbaycan illərdir erməni terrorundan əziyyət çəkir, şəhidlər verir. Bu terrorun başında dayananlardan biri Sərkisyandır.

Keçən dəfə Lələtəpəyə qədər gəlmişdi. Yenə gəlir. Terrorçu yığnağına demək istəyir ki, "qorxmayın, mən burdayam, Qarabağı da kimsə geri qaytara bilməz". Onun gəlişi erməni canilərini daha da qudurdacaq, yenə itkilər verəcəyik. Onu durdurmağın bir yolu var: Azərbaycan terrorçuların komandanını qarşılamaq üçün bir "kamikadze" pilotsuz aparatı - dronu havaya buraxsa, bu, yetərlidir. Cani prezident ikinci dəfə Qarabağa ayaq basmaz.

**Ermənilərin apreldəki təşvişi unudulmayıb. Sərkisyan gələrsə və drona tuş gələrsə, onun da cavabı hazırdır: "Sərkisyanın Qarabağda nə ölümü var idi" demək bizim halal haqqımızdır. Dünya da bilir ki, terrorçunu heç yerdə gül-çiçəklə qarsalamırlar...**

YENİ MÜSAVAT
N 153 (6474) 16 iyul 2016

**"Heç bir ölkə terrordan sığortalanmayıb". Yəqin ki, bu deyimi dünya ölkələrində baş verən terror hadisələrindən sonra bir çox ölkə liderlərinin, siyasətçilərin, ekspertlərin dilindən hər birimiz eşitmişik. Bəli, terrordan sığortalanmaq mümkün deyil.**






# Nitsa terrorunun Bakıdakı əks-sədası - təhlükəsizlik tədbirləri gücləndirildi

## Məscidlərdə, iri ticarət mərkəzlərində, metrostansiyalarda təhlükəsizlik tədbirləri artırılıb; ekspert hamını diqqətli olmağa çağırır






Bunu son zamanlar dünyanın ən güclü dövlətlərində baş verən terror hadisələri açıq şəkildə sübut etdi. İŞİD tərəfindən son olaraq Fransa, Belçika və Türkiyə kimi ölkələrdə törədilən terror hadisələrini xatırlamaq olar. İyulun 14-də Fransanın Nitsa şəhərində 84 nəfərin ölümünə səbəb olan terror bir daha bu təhlükənin hər zaman real olduğunu göstərdi. Məlum olduğu kimi, İŞİD bütün dünya ölkələrini olduğu kimi Azərbaycanı da təhdid edir. Yarandığı ilk gündən "İslam dövləti"nin xəritəsini tərtib edən İŞİD Azərbaycanı da öz "ərazisinə" daxil edib. Sonuncu olaraq isə Türkiyə mətbuatında yer alan iddiada deyilir ki, İŞİD Azərbaycanı da hədəf alıb. İŞİD-in ötən ay Atatürk Hava Limanında törətdiyi terror hadisəsindən və adı çəkilən təşkilatın Azərbaycanı hədəf seçməsi ilə bağlı məlumatlar yayılandan sonra Bakıda təhülkəsizlik tədbirləri gücləndirilib.

Bir neçə gün əvvəl hava limanıdan təqdim etdiyimiz reportajda əvvəlki günlərdən fərqli olaraq avtomobillər bir-bir yoxlanıldığını, terminallara kənar şəslərin buraxılmadığını və əlavə təhlükəsizlik tədbirlərinin görüldüyünü qeyd etmişdik.

Bundan əlavə paytaxtın ən böyük alış-veriş mərkəzlərinin girişlərində, avtomobil dayanacaqlarında, metro girişlərində, məscidlərdə təhlükəsizlik tədbirlərinin gücləndirildiyini görmək mümkündür. Hətta bəzi ticarət mərkəzlərinin dayanacaqlarına daxil olan maşınlar xüsusi cihazlar vasitəsi ilə yoxlanılır. Girişlərdə ticarət mərkəzlərinə daxil olan müştərilərin çantaları yoxlanılır. Gün ərzində ən çox insan sıxlığı müşahidə olunan Bakı metro stansiyalarında da təhlükəsizlik tədbirləri artırılıb. Sərnişinlərin çantalarını yoxlayan və platformalarda xidmət aparan polis əməkdaşlarının sayı artırılıb. Giriş qapılarının bəziləri bağlanıb və sərnişinlər bir-bir yoxlanıldıqdan sonra içəri buraxılır.

İyulun 15-i "Əjdərbəy" məscidinin girişində içəri daxil olanların əl çantaları yoxlanılıb. Digər məscidlərdə də eyni vəziyyətin müşahidə olunduğu bildirilir. "Metropark", "28 Mall", "Park Bulvar" kimi böyük ticarət mərkəzlərinin girişlərində də təhlükəsizlik tədbirləri artırılıb. Dayanacaqlara daxil olan avtomobillər də xüsusi cihazlarla yoxlanılır.

### Terrorla mübarizədə biz nə etməliyik?

Terror hadisələrindən sonra əsasən hər bir ölkə öz vətəndaşına xəbərdarlıq edərək, onlardan şübhəli şəxslərə qarşı daha diqqətli olmalarını xahiş edirlər. Təhülkəsizliyi təmin edən orqanlar baş verə biləcək terror hadisələrinin qarşısının alınmasında vətəndaşlardan kömək istəyirlər. Bəs, terrordan özümüzü necə qorumalıyıq və bu istiqamətdə aparılan mübarizədə üzərimizə hansı məsuliyyət düşür?

Bu suallarımızı **sabiq təhlükəsizlik zabiti Arzu Nağıyevə** ünvanladıq. Əvvəlcə terror hadisələrinin qarşısının alınmasında vətəndaşların rolundan danışan A.Nağıyev bildirir ki, dünyanın istənilən ölkəsində ən yüksək səviyyədə təhlükəsizlik tədbirləri görülsə belə vətəndaşların da bu işdə rolu danılmazdır.

**Bu səbəbdən də ekspert vətəndaşları daha diqqətli olmağa və üzərimizə düşən işi yerinə yetirməyə çağırır:** "Hər bir insan istifadə etdiyi nəqliyyat vasitəsində diqqətli olmalıdır. İnsanlar avtobuslarda, qatarlarda, hava limanlarında olarkən şübhəli gördükləri şəxs və ya hansısa bir çanta barəsində polisə, nəzarətçiyə məlumat verməlidirlər. Bu cür hallarla rastlaşanda məsuliyyətli olmaq və lazım olanı etmək lazımdır. Bununla biz həm özümüzü, həm də ətrafımızdakıları qorumuş oluruq".

**Avtobuslardan istifadə edərkən diqqətli olmağı xüsusi ilə vurğulayan A.Nağıyev bu nəqliyyat növündə təhlükəsizliyin sırf sərnişinlərdən asılığı olduğunu deyir:** "Avtobuslara minən sərnişinlərin kim olduğunu, nə məqsədlə mindiyini bilmək mümkün deyil. Sərnişinlər yoxlanılmır. Kiminsə terrorçu olması tam realdır. Ona görə də təhükəsizlik insanlardan asılıdır. Sahibsiz çanta görən zaman diqqət etmək lazımdır. Avtobus salonuna mümkün qədər göz gəzdirmək lazımdır. Eyni vəziyyət qatarlarda da mövcuddur. Bayram günlərində qatarlardan o qədər sərnişin istifadə edir ki, bu zaman təhülkəsizlik tədbirləri demək olar ki, görülmür. Nəqliyyat vasitələrindən istifadə edərkən diqqətli olmaq lazımdır. Biz özümüz də özümüz qoruya bilərik".

**Ekspertin fikrincə, səfər zamanı təyyarədən istifadə edən sərnişinlər bunları nəzərə almalıdır:** "Nə qədər ciddi təhülkəsizlik tədbirləri görülsə də hava limanlarında terror hadisələri baş verir. Əsasən sərnişinlər uçacaqları aviaşirkəti düzgün seçməlidir. Hansı şirkətin xidmətindən istifadə edilməsi önəmlidir.Təhlükəsizlik baxımından özünü təsdiqləmiş kifayət qədər aviaşirkətlər var".

**Dünyada baş verən terror hadisələrinin bəzilərinin necə törədilməsini xatırladan ekspert terrorçuların seçə biləcəyi metodlara qarşı da ayıq-sayıq olmağı məslət görür:** "Məsələn, metroda bir nəfərin relslərin üstünə yıxıldığını, başqa birinin halının pisləşdiyini görən zaman polisə və metropoliten əməkdaşlarına məlumat verilməlidir. Bu təhülkəsizlik baxımından önəmlidir. Bu terrorçuların planının bir hissəsi də ola bilər. Onlar belə vəziyyətdə ətrafdakıların diqqətini çəkməyə çalışa bilərlər.

Dünya standartlarında qatarlarda oturacaqların altı boş olur. Azərbaycanda köhnə qatarların oturacaqlarının altı isə qapalıdır. Bu isə təhlükəlidir. Yeni qatarlarda fikir vermisinizsə, bu belə deyil. Oturacaqların altı boşdur. Bu da müəyyən təhlükənin qarşısını alır. Hər hansı bir çantanı oturacaqların altında gizlətmək mümkün deyil. Vətəndaşların oturacaqlar altına qoyula biləcək naməlum əşyanı görməsi çox asandır".

### "Şərti düşmən" əməliyyatı...

A.Nağıyev deyir ki, təhlükəsizliyin tam şəkildə təmin edilməsi daha çox bu işi görməli olan şəxslərin işlərinə məsuliyyətli yanaşmasından asılıdır: "Ticarət mərkəzlərində, insanların sıx olduğu məkanlarda təhülkəsizliyi təmin etmək vəzifəsini yerinə yetirənlər də işini məsuliyyətlə yerinə yetirməlidir. Çantaları yoxlamaq kifayət etmir. İnsanların davranışına, gördüyü işlərə fikir vermək lazımdır. Azərbaycandan 450 kilometr məsafədə müharibə gedir. Hava limanlarına, avtovağzallara girişlərdə xüsusi monitorlar olmalıdır. Əgər terror təhdidi, təhülkəsi varsa, bunu ciddi qəbul etmək, xüsusi xidmət orqanları tərəfindən müvafiq addımlar atılmalıdır.Təhülkəsizlik tədbirlərini görməyə cavabdeh olan xüsusi xidmət orqanları tərəfindən mütəmadi olaraq keçirilən "şərti düşmən" əməliyyatı var. Bu, əməliyyat axtarış tədbirlərində həyata keçirilən əsas əliyyatlardan biridir. İndi Azərbaycanda görülən təhlükəsizlik tədbirlərinin effektivliyi ilə 70-80 faiz razılaşmaq olar. Bütün bu işlər xüsusi xidmət orqanlarının vəzifəsini məsuliyyətlə yerinə yetirməsindən asılıdır".

❑ **İ.MURADOV**
**Musavat.com**
**Fotolar müəllifindir**








Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# İşğalçı ölkənin qorxduğu əsas sürpriz - Türkiyə amili

## Qardaş ölkənin Qarabağa dair yeni sülh prosesində yer almağa başlaması düşmən tərəfi təşvişə salıb; Moskva ilə barışan Ankara etimad və anlaşma prosesinə böyük töhfə verə bilər...

**Qarabağ problemi ətrafında diplomatik fəallıq hələ ki real nəticəyə gətirməyib. Hələ ki hansısa proses gedirsə də bağlı qapılar arxasında gedir. O üzdən ortalıqda cavablardan çox suallar var. Bakıya xarici emissar axınının güclənməsi də sualların sayını azaltmayıb.**




Bu xüsusda Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı səfərindən dərhal sonra Türkiyə xarici siyasət idarəsinin başçısı Mövlud Çavuşoğlunun ölkəmizə başlayan səfəri və bu səfər çərçivəsində Qarabağ məsələsinin müzakirə olunması ikiqat diqqət çəkir.

Şübhə yox ki, rəsmi Bakı qardaş ölkəni də hazırda davam edən Qarabağ danışıqları barədə kursda saxlamaq istəyir. Böyük ehtimalla, Çavuşoğlunun Azərbaycan səfəri həm də bununla bağlıdır. Yada salaq ki, az öncə nüfuzlu Rusiya nəşrlərindən biri Lavrovun son İrəvan səfəri barədə yazmışdı ki, Kreml Türkiyəni də Qarabağa dair həll planına qoşmaq istəyir və gündəlikdə Ermənistanla sərhədlərin açılması da var.

Bu arada Türkiyə baş nazirinin müavini Numan Qurtulmuş Konyada təşkil edilən Beynəlxalq Mədəniyyət Turizmi və Media konfransında çıxışı zamanı deyib ki, Türkiyə ölkə və millət olaraq Qarabağın ermənilər tərəfindən işğal edilməsini heç bir şəkildə qəbul etməyəcək. "Qarabağ Azərbaycanın tərkib hissəsidir. Ölkə və millət olaraq, Qarabağın ermənilər tərəfindən işğalı ilə barışmayacağıq. Bu həqiqət dünya birliyi tərəfindən qəbul olunmalıdır. Biz bu məsələni istənilən platformada ifadə edirik", - Qurtulmuş bildirib.

**Politoloq Qabil Hüseynli** isə hesab edir ki, Rusiya-Türkiyə münasibətlərinin qaydaya düşməsi ilə Dağlıq Qarabağ prosesində açılan yeni mərhələ problemin həllini bu iki dövlətin inhisarına vermiş olacaq (Axar.az). Sabiq dövlət müşaviri bildirib ki, indiki həssas məqamda Türkiyənin Qarabağla bağlı mövqeyinin əvvəlki kimi prinsipial olması mühümdür.

"Rusiyanın məsələ ilə bağlı təklif etdiyi həll variantları Azərbaycanın tələblərinə uyğun gəlmir. Bu kontekstdə Türkiyənin bölgədə münasibətlərin qaydaya düşməsində maraqlı olması prosesdə böyük rol oyanacaq. Ankaranın strateji maraqları Ermənistanla da münasibətləri yaxşılaşdırmağı, hətta lazım gələrsə, Qars müqaviləsini işə salmağı tələb edir. Azərbaycanla münasibətlər onsuz da yüksək səviyyədədir. Sözsüz ki, prosesdə həlledici rol Azərbaycana məxsusdur. Bakının kompromis limiti çoxdan bitib. Azərbaycanın qarşısında duran əsas məsələ çox uzanmadan işğal edilmiş ərazilərdən ermənilərin çıxarılmasıdır. Bu, ermənilərə yüksək status vəd edir və məsələni danışıqlar prosesində həll etmək niyyətindəyik. Çavuşoğlunun Bakı səfərində Azərbaycan və Türkiyə ortaq strategiya formalaşdıracaq. Sözügedən strategiya isə danışıqlar prosesində masaya yatırılacaq".

**Politoloqa görə, Türkiyə Rusiya və Ermənistanı danışıqların beynəlxalq hüquq normaları çərçivəsində aparılmasına yönləndirə bilər:** "Ankara bunun əvəzində sülh yarandıqdan sonra həmin dövlətlərin iqtisadi inkişafına verəcəyi töhfələrindən istifadə edəcək. Bu isə sülhyaratma prosesində inkişaf edəcək, blokada aradan götürüləcək, diplomatik münasibətlər yaradılacaq, ermənilərə Türkiyədə hər cür imkan veriləcək. Bütün bunlar o zaman baş tutacaq ki, Ermənistan Qarabağa olan cəfəng ərazi iddialarından əl çəkəcək. Güman edirəm ki, Türkiyə danışıqlar prosesinə böyük töhfələr verə, vəziyyəti yumşalda bilər. Türkiyə xarici işlər naziri Bakıya xeyli maraqlı, konstruktiv və bölgədə müharibə vəziyyətinin aradan qaldırılmasına kömək edəcək təkliflərlə gəlir. Bu təkliflər isə Bakı tərəfindən çox müsbət qarşılanacaq".

***

Lakin hələ ki sülh danışıqları konfidensial aparılır. Bu da sövq-təbii Azərbaycanda müəyyən nigarançılıq yaradıb. Ermənistanda isə əsl narahatlıq və təlaş atmosferi hökm sürməkdədir. İşğalçı ölkədə həm də hansısa sürprizlərin olacağından danışmağa başlayıblar. Hərçənd, işin içində olan Rusiya rəsmiləri buna əsas görmürlər. Bu da anlaşılandır. Ortaya real nəticə qoyulmayınca, Rusiya izafi gərginlik yaradacaq bəyanat və açıqlamalar verməyəcək.

"Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda hansısa xoşagəlməz sürprizin olacağından söhbət gedə bilməz". Bunu keçirdiyi son brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova deyib. Jurnalistin münaqişənin nizamlanması ilə bağlı danışıqlar prosesinin gizli saxlanılmasının Ermənistan və Azərbaycan cəmiyyətləri üçün xoşagəlməz sürprizlə nəticələnə biləcəyi və bunun təhlükəli olması ilə bağlı sualını cavablandıran Rusiya XİN sözçüsü qeyd edib ki, müzakirə olunan məsələlərin gizli saxlanılmasında qorxulu heç nə yoxdur.

"Əgər danışıqlar prosesi tərəflərin iştirakı ilə getməsəydi, o zaman sizin dediyiniz kimi, təhlükəli olardı. Danışıqlar prosesində dövlət başçıları, nazirlər, hər iki tərəfdən ekspertlər iştirak edir. Onların hər şeydən xəbəri var. Ona görə də, bu prosesdə xoşagəlməz sürprizdən söhbət gedə bilməz" - XİN rəsmisi bildirib. Mariya Zaxarova deyib ki, qorxulu məqam danışıqlar prosesinin razılıq olmadan nəticələnməsi olardı: "İndi fəal danışıqlar gedir. Bu, uzun sürən bir prosesdir. Qorxulu məqam danışıqlar prosesinin pozulmasıdır. İndi çox vacib məqamdır. Bütün komanda ümumi nəticənin əldə edilməsinə nail olmalıdır. Biz Bakıda və İrəvanda olduq. Küçədə sadə insanlar bizə yaxınlaşıb, fikirlərini bildirirdilər, onlar daha qan tökülməsini, insan itkilərinin olmasını istəmirlər. Bizim də əsas məqsədimiz məhz budur".

**Erməni jurnalistin Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakıya səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin müzakirəsinin danışıqlar prosesinə necə təsir edəcəyi ilə bağlı sualına M.Zaxarova belə cavab verib:** "Bu sualın çox asan bir cavabı var. Hər hansı konstruktiv kömək Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin xeyrinədir".

***

**Erməni jurnalistin də sualından göründüyü kimi, düşmən ölkə prosesdə Türkiyənin iştirakından da ciddi narahatlıq keçirir. Amma təbii ki, prosesdə Rusiya ən əvvəl özünün maraqlarını güdür. Bu maraqların qayəsində isə hansı həll variantı olur-olsun, Azərbaycanla Ermənistanı öz təsir dairəsində saxlamaq, Ermənistanla yanaşı, Azərbaycanda da hərbi cəhətdən möhkəmlənmək məramı durur. Moskva bu hədəflərə nail olacaqmı və necə nail olacaq? Bunu yəqin ki, yaxın zaman göstərəcək.**

## "İşğalçı əsgərlər təmas xəttində durduqca..."



**"Danışıqları daha çox intensivləşdirməliyik". Bunu Azərbaycanın xarici işlər naziri Elmar Mmmədyarov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə dünən keçirdiyi birgə mətbuat konfransında sualları cavablandırarkən deyib. O bildirib ki, Ermənistan yenə təmas xəttində təxribatlar törətməyə çalışır.**

"Bu hadisələrə son qoymaq üçün diplomatik vasitələrdən istifadə etmək lazımdır. Çünki baş verən xoşagəlməz hadisələr göstərir ki, danışıqların intensivləşməsini istəməyən qüvvələr mövcuddur. Ermənistan əsgərləri təmas xəttində qaldıqca, bu cür xoşagəlməz hadisələr baş verməyə davam edəcək" - Azərbaycan XİN başçısı qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# O, ilk publik çıxışında da fitə basılıb

## Dünyanın etiraz etdiyi Böyük Britaniyanın xarici işlər naziri Boris Conson kimdir?

**Böyük Britaniyanın baş naziri Tereza Mey vəzifəyə gəldiyi ilk gündən komandasında dəyişikliklərə başlayıb və artıq 4 naziri istefaya göndərib. Həmçinin Londonun sabiq meri Boris Consonu Filip Hemmondun əvəzinə xarici işlər naziri təyin edib. Xanım baş nazir digər təyinatlar da edib. Lakin ən çox səs-küy doğuran məhz Boris Consonun təyinatı olub.**

Boris Consonun xarici işlər naziri postuna təyinatı Avropa Birliyi ölkələrində birmənalı qarşılanmayıb. Hətta bir sıra ölkələrin XİN rəhbərləri bu təyinatı "uğursuz zarafat" adlandırıblar.

Britaniyanın yeni xarici işlər naziri, Londonun sabiq meri Boris Conson vəzifəsinə təyinatından sonrakı ilk publik çıxışında da fitə basılıb. Boris Conson Fransanın Londondakı səfirliyində Bastiliyanın Alınma Gününə həsr olunmuş təntənəli qəbula qatılıb və orada çıxış edərkən, səfirlikdəki qonaqlar B.Consonun çıxışını narazılıqla qarşılayıblar. Hətta Britaniyanın yeni XİN başçısını fitə basanlar da olub.

Boris Conson həm də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və dünyanın digər liderləri haqqında söylədiyi tənqidi fikirlərlə tanınır. Onun XİN rəhbərliyinə gəlməsi türkiyəli həmkarını da narahat edib. Türkiyənin baş naziri Binali Yıldırım İngiltərənin yeni xarici işlər naziri Boris Conson haqqında tənbeh dolu fikirlər səsləndirib və Allah islah etsin deyib. B.Yıldırım deyib ki, Consonun türklərin könlünü qazanmaq üçün səylər göstərəcəyinə inanmaq isteyir.

İngiltərənin ən populyar mətbuat orqanı olan "Independent" qəzeti də yeni təyinatdan dolayı utandığını bildirib və bütün dünya xalqlarından üzr istəyib.

"Independent" yazıb ki, yaxşı ki, Boris Conson İngiltərənin baş naziri təyin edilməyib, əgər belə olsaydı, ölkə daha biabırçı vəziyyətə düşərdi.

*Bəs, görəsən nazir təyin olunması ilə bütün dünyada fərqli reaksiyalara səbəb olan B.Conson kimdir, necə bir siyasətçidir?*

Xaraktercə B.Conson daha çox rusiyalı siyasətçi Jirinovskiyə bənzədilir. Conson da populist çıxışlar etməkdən, özü haqqında xoşagəlməz təəssüratlar yaratmaqdan çəkinmir. Dünya liderləri haqqında satirik fikirlər səsləndirən yeni xarici işlər naziri ABŞ-ın prezidentliyə ən real namizəd olan Hillari Klintonu "bir dəlixananın faşist tibb bacısı"na bənzədərək əks-sada doğurmuşdu.

Consonun Türkiyə prezidenti Ərdoğan haqqında tənqidi fikirləri də bir müddət dünya mətbuatının müzakirə obyekti olub.

Boris Consonun kimliyinə gəlincə, 1964-cü ildə doğulan siyasətçinin türk kökənli olduğu bildirilir. Məlumata görə, Osmanlının son dönəmində daxili işlər naziri olan Əli Kamalın nəvəsi Stanley Consonun oğludur.



Boris Consonun xarici işlər naziri təyin olunması Böyük Britaniya siyasətində nəyi dəyişəcək? Onun sərt mövqeyi bu ölkəni AB ölkələri və Türkiyə ilə üz-üzə qoya bilərmi və ya ölkələr arasındakı münasibətlərdə soyuqlaşmaya səbəb olacaqmı?

Qeyd edək ki, artıq Avropa siyasətçiləri Boris Conson əleyhinə kompaniyaya başlayıblar.

"Yeni Müsavat"ın suallarını cavablandıran **politoloq Qabil Hüseynli** bildirdi ki, Britaniya və Türkiyənin bundan sonrakı münasibətlərinin sual altında olduğunu bildirdi: "İngiltərənin keçmiş baş naziri Devid Kemeron da Türkiyə haqqında tənqidi fikirlər səsləndirirdi və bu ölkənin Avropa Birliyinə yolunu bağlayanlardan biri idi. Ondan sonra isə F.Olland və sabiq prezident N.Sarkozi idi. İngiltərə ənənəvi olaraq, bəlli bir stereotiplərlə yaşayır. O stereotip Osmanlı imperiyasına qarşı Böyük Britaniya imperiyasının bəslədiyi kin və küdurətindən qaynaqlanır. Təəssüflər olsun ki, Böyük Britaniya XXI əsrə qədəm qoysa da, onun vətəndaşlarının və siyasilərinin yaddaşında Osmanlı imperiyasının varisi olan Türkiyəyə qarşı bəlli stereotiplər hələ də yaşamaqdadır. Yeni baş nazir təkcə anti-türk deyil həm də islamafobdur. Onun xarici işlər naziri təyin etdiyi B.Conson da anti-türk mövqeyi ilə seçilir".

**Q.Hüseynli yeni hökumətin hakimiyyət dövrünün ən çox 6 ay davam edəcəyini proqnozlaşdırdı:** "Uzağı 6 aya Böyük Britaniyada yeni parlament seçkiləri keçiriləcək və o seçkilərin keçirilməsini vacib edən amillərdən biri də odur ki, bu ölkənin AB-yə qayıtması üçün petisiya toplanır. Bu petisiyanın sayı 4 milyondan çoxdur, qanunvericiliyə görə 4 milyondan çox petisiya yeni referendumun keçirilməsi üçün yetərlidir. Bu dəqiqə İngiltərənin siyasi həyatı kifayət qədər qarışıqdır. Mən buraya iqtisadi göstəricilərin pisləşməsini də əlavə etsəm, xoşagəlməz bir mənzərə yaranır. Bu çətinlikdən çıxmaq üçün mütləq parlament seçkiləri keçiriləcək. Bu seçkilər çox şeyi yerbəyer edəcək. Bu mənada hazırki xarici işlər nazirinin də dəyişmək ehtimalı kifayət qədər böyükdür. Hazırda hakimiyyətdə olan partiya yeni seçkilərdə məğlubiyyətə də düçar ola bilər. Britaniya yaxın 6 ayda ciddi siyasi korreziyalar yaşayacaq".

**Politoloq Elxan Mehdiyev** isə Boris Conson haqqında müsbət fikirlər bildirdi: "Boris Conson çox düzgün və səmimi bir siyasətçidir. O London xalqına göstərdiyi xidməti ilə ad qazanıb. Buna görə də, iki dəfə dünyanın paytaxtı olan Londonun meri seçilib. İndi də baş nazirliyə ən real namizəd o idi, lakin Avropa Birliyindən çıxmağın əleyhinə olduğundan, Avropa illə əlaqələrdə soyuqluq olacağından baş nazirliyə namizədliyini geri götürdü. B.Consonun xarici işlər naziri təyin olunması da partiyasında tutduğu mövqeyə, nüfuza görədir. Avropa ölkələri ilə münasibətlərə gəldikdə isə onu dürüst və səmimi bir insan kimi qəbul edib münasibət quracaqlar. Çünki Avropa siyasəti demokratik dəyərlər üzərində qurulub. Bu baxımdan Boris Consonun orada heç bir problemi olmaz".

❑ **Nərgiz LİFTİYEVA**

# Nazirlik Qarabağ əlilinin şikayətinə reaksiya verdi

## "Digər müharibə əlilləri kimi, Rüxsarə Cumayeva da dövlətin sosial təminat sistemi ilə əhatə olunub"

**Qarabağ qazisi, Tutu ləqəbli Rüxsarə Cumayeva sosial yardım ala bilməməsindən şikayətçidir. Onun sözlərinə görə məsələ ilə əlaqədar bu ilin yanvar ayından Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə müraciət etsə də heç bir nəticə yoxdur:**

"Mənim dövlətdən aldığım məvacib 66 manatdır, o da 1-ci qrup əlilliyimə görədir. 74 manat isə prezident təqaüdüdür. İkisi birlikdə cəmi 140 manat edir. Mənim və qızımın nəinki ərzağına, kommunal xərclərə, heç yol xərclərinə də yetmir. Buna görə də əlavə yardım almaq istəyirəm. Mənim evim, avtomobilim, əlavə gəlir yerim yoxdur. Buna görə də hesab edirəm ki, mənə əlavə sosial yardım düşür. Həmin 140 manatı da ötən ilin noyabr ayından alıram. Ona qədər sırf 50 manat alırdım.

Övladım bu il 10-cu sinfə qədəm qoydu. Onu hansı pulla oxudum? O mənim himayəmdədir, amma reallıqda mən onun himayəsindəyəm. Çünki mənə baxan yoxdur, 14 yaşlı uşaq mənə qulluq edir.

Bu barədə dönə-dönə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə məktub yazmışam. Hər dəfə ərizəmdə bir bəndin səhv yazıldığını bəhanə edib müraciətimi üstümə göndərirlər. Beləliklə 4 dəfə ərizəm geri qayıdıb. Bildirilir ki, sizə yardım düşsə də, hansısa bəndə görə yardımdan azad olursuz. Niyə? Əgər mənim evim, avtomobilim yoxdursa mənə düşmürsə bəs kimə düşür?! Nazirlik məni Tür-



kiyəyə müalicəyə göndərməli idi. O məsələdən də bir xəbər yoxdur hələ ki...

Nə ilə dolanım? Oğluq edim?! Bir yerə getmək üçün məcburam ki, boğazımdan kəsib taksi çağırım. Amma heç olmasa onu bir dəfə edim, gedim və sənədlərim düzəlsin. Hər dəfə getmək imkanım yoxdur".

**Məsələ ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdik. Nazirlikdən yazılı surətdə bildirildi ki, R.Cumayevanın da ünvanlı dövlət sosial yardımının alınması üçün elektron qaydada etdiyi müraciətə avtomatlaşdırılmış sistem tərəfindən baxılarkən onun aylıq xərcləri ehtiyac meyarının məbləğindən yüksək olduğundan imtina qərarı verilib**:

"Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) tərəfindən I qrup Qarabağ müharibəsi əlili Ruxsarə Cumayevanın ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməməsi ilə əlaqədar bildiririk ki, cari ilin fevral ayından tətbiq edilən həmin sistem tərəfindən sosial yardımların təyinatı prosesi tam avtomatlaşdırılmış şəraitdə həyata keçirilir.

Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciətin edilməsi, müraciətlərə baxılması və yardım təyin olunub-olunmaması barədə qərar qəbulu, habelə həmin qərarlar barədə vətəndaşların məlumatlandırılması prosesi heç bir məmur müdaxiləsi mümkün olmadan, şəffaf şəkildə yerinə yetirilir. Vətəndaşların "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" e-xidməti vasitəsilə etdikləri müraciətlər qeydə alındıqdan sonra vətəndaşlara və təmsil etdikləri ailələrə aid müvafiq məlumatlar "Elektron hökumət" portalı üzərindən aidiyyəti qurumların informasiya resurslarından elektron qaydada əldə olunur. Həmin məlumatlar elektron infrastruktur tərəfindən təhlil olunduqdan sonra yardımın təyin edilib-edilməməsi barədə obyektiv qərar qəbul olunur.

R.Cumayevanın da ünvanlı dövlət sosial yardımının alınması üçün elektron qaydada etdiyi müraciətə avtomatlaşdırılmış sistem tərəfindən baxılarkən onun aylıq xərcləri ehtiyac meyarının məbləğindən yüksək olduğundan imtina qərarı verilib.

Onu da qeyd edək ki, digər müharibə əlilləri kimi, R.Cumayeva da dövlətin sosial təminat sistemi ilə əhatə olunub. Belə ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən o, Qarabağ müharibəsi əlili kimi, aylıq sosial müavinət və ya əmək pensiyası ilə yanaşı, Azərbaycan Prezidentinin aylıq təqaüdü ilə də təmin edilir.

Eyni zamanda, əvvəllər II qrup əlillik dərəcəsi olan R.Cumayevanın müraciəti nəzərə alınaraq, o yenidən əlillik müayinəsinə cəlb edilib və əlilik qrupu ikinci dərəcədən birinci dərəcəyə dəyişdirilib".

**Nazirlikdən həmçinin bildirilib ki, R.Cumayevanın müharibə əlilləri üçün nəzərdə tutulan imtiyaz və güzəştlərdən istifadəsi üçün lazımi şəraitin yaradılması bundan sonra da təmin ediləcəkdir.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 153 (6474) 16 iyul 2016

# Azərbaycan özünü əksər dərmanlarla təmin edə bilər, əgər...

## Mütəxəssislərə görə, bunun üçün bir neçə şərtin təmin olunması vacibdir

**Azərbaycanda dərman preparatlarının istehsalı üçün ciddi proqram hazırlanır. Bunu Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin cari ilin birinci rübünün sosial-iqtisadi inkişafı və qarşıda duran vəzifələrə dair iclasında çıxışı zamanı deyib. Dövlət başçısının çıxışından məlum oldu ki, yaxın zamanlarda dərman istehsalına başlanacaq və dərman preparatları istehsal edəcək fabriklərin tikilməsi gündəlikdə duran məsələlərdəndir.**

*Maraqlıdır, Azərbaycanda dərman istehsalı üçün perspektiv varmı?* **Tibb elmləri doktoru, professor Adil Qeybulla** ölkədə bundan ötrü zəmin olduğunu dedi: "Azərbaycanda dərman istehsalına başlanılması bir neçə faktordan asılıdır. Birincisi, biz hansı firmalarla müştərək bu işi quracağıq. Bu çox mühüm məsələdir. Təbii ki, İranla və yaxud da İran tipində olan ölkələrlə dırman istehsalına müştərək başlasaq, bizim dərmanlar Avropa standartları səviyyəsində olmayacaq. Biz Azərbaycan dərmanının dünya bazarına çıxmasına daha çox əhəmiyyət verməliyik. İkincisi, bu başdan Avropa standartları məsələsini qoruyuqsa, məsələyə Avropa səviyyəli məşhur şirkətlərlə başlamalıyıq ki, istehsal olunan dərmanların keyfiyyət parametrləri buna uyğun olsun. Bunun bir müsbət tərəfi də ondan ibarətdir ki, milli əczaçılıq sənayesi inkişaf edəcək, xeyli yeni kadrlar formalaşacaq. Çünki bu gün bu sahədə kadra tələbat yoxdur. Bundan başqa, daxili bazarın ucuz dərmanlarla təmin olması məsələsi həll olacaq. Bu həm icbari tibb sığorta paketi üçün, həm də əhalinin dərmanları daha sərfəli qiymətlə alması üçün önəmlidir. Amma bu işin kompleks həlli hərtərəfli dəyərləndirilməlidir ki, gələcəkdə biz daha ciddi uğurlara nail olaq. Azərbaycanda dərman istehsalı üçün perspektiv var. Ölkəmizdə sovet vaxtı farmakologiya, əczaçılıq sənayesi olub. Düzdür, burada çox mürəkkəb mallar istehsal olunmasa da zavod olub. Amma hazırda yeni zavodların müasir avadanlıqla tikilməsi planlaşdırılır. Bu sahədə də mülk olaraq bizim və xarici mütəxəssislərdə cəlb olunmaqla müştərək bu işi görə bilərlər. Sonra bu istiqamətdə yeni mütəxəssislərin yetişdirilməsi prosesinə cəmiyyətdən tələbat olsa, bu məsələ qısa müddətdə həllini tapa bilər".

*Maraqlıdır, Azərbaycanda dərman istehsalı qeyri-neft sektorunun inkişafına təkan verə bilərmi?* **İqtisadçı ekspert Natiq Cəfərli** idxaldan asılılığın azaldılması üçün yerli istehsalın vacib olduğunu dedi: "Bu gün Azərbaycan 100 faiz dərman idxalından asılıdır. Bu idxalda asılılığı



azaltmaq üçün yerli istehsalın olması vacibdir. Sadəcə, dövlət hər şeydə dominant olmalı deyil. Dövlət elə bir şərait yaratmalıdır ki, xüsusi investorlar özləri maraqlı olsun ki, Azərbaycanda hansısa istehsal sahələri açsınlar. Bu zaman dövlətin özünün də yükü azalır, investor qoymaq məsələsi aradan qalxır və dövlət büdcəsi hesabına deyil, xarici investorlar hesabına bu işi görmək olar. Yerli investorlar tapmaq çətindir. Amma xarici investorların fəaliyyəti üçün yaxşı şərait yaradılıb, bu işi onların hesabına görmək olar. Azərbaycanda yerli dərman istehsalı olsa belə bunun xammalı mütləq xaricdən gətiriləcək. Çünki Azərbaycanda dərman preparatlarının istehsalı üçün xammal istehsalı yoxdur. Yəni bu zəncirvari bir birinə bağlı bir məsələdir. Ən azından yerli istehsal olsa xammalın gətirilməsi daha ucuz başa gələcək. Bu, əhali üçün yeni iş yerlərinin açılması deməkdir və müəyyən qədər idxaldan asılılığın azalması demək olacaq. Amma dərman elə bir spesifik sadədir ki, heç vaxt heç bir ölkə bunu tamamilə yerli istehsal hesabına qapada bilmir. Buna görə də müəyyən dərəcədə idxaldan asılılıq qalacaq. İndiki kimi 100 faiz asılılıq isə çoxlu həcmdə valyutanın çölə çıxmasına səbəb olur. Ona görə də ən azından çox istifadə edilən dərman preparatlarının istehsalına başlanılması doğru bir yanaşma olardı. Sadəcə olaraq, xüsusi mülkiyyətə, xarici kapitala, xarici investorlara önəm verməli, onlar üçün şərait yaradılmalıdır ki, onlar bazarın korrekturasına uyğun olaraq istehsal sahələri yaratsınlar. Çünki 9,5 milyona yaxın Azərbaycan əhalisi var və bu əhalinin dərman preparatları ilə təmin etmək üçün xarici investetorlara yaxşı şərait yaradılsa, onlar Azərbaycanda məmnuniyyətlə yerli istehsalla məşğul ola bilərlər. Mən bildiyim qədəri ilə əsas danışıqlar Rusiya şirkətləri ilə gedir ki, Rusiya şirkətlərinin özləri belə çox zaman xammalı xaricdən almağa məcburdurlar. Rusiyanın özündə də dərman istehsalı üçün istifadə olunan xammalın böyük əksəriyyəti xaricdən gətirilib".

**N.Cəfərli bildirdi ki, bu məsələdə siyasi məsələlər deyil, iqtisadi rentabellik əsas götürülməlidir:** "Burada siyasi məsələlər deyil, iqtisadi rentabellik önə çəkilməlidir və xarici şirkətlərin, əsasən də böyük Avropa şirkətlərinin Azərbaycanda dərman istehsalına şərait yaradılması üçün bir proqramda bu qeyd edilməlidir. Dövlət bu işi öz üzərinə götürməyə cəhd göstərsə və dövlət investisiyaları hesabına bu işi görmək istəsə onun effektivliyi çox aşağı olacaq".

❑ **Günel MANAFLI**

# Azərbaycanlılar niyə çox içib-çəkir?

**"Azərbaycan dünyada ən çox spirtli içki içilən və ən çox siqaret çəkilən ölkələr sırasındadır". Bu sözləri BAXCP sədri, deputat Qüdrət Həsənquliyev moderator.az saytına verdiyi müsahibəsində bildirib. Deputat qeyd edib ki, orta məktəblərin yaxınlığında spirtli içkilərin və tütün məmulatlarının satılmasını qadağan edən qanun qəbul olunsa da buna əməl edən yoxdur. Həmçinin təklif edib ki, Azərbaycanda qəlyan evləri qadağan olunsun və qanunları pozanlar sərt şəkildə cəzalandırılsın.**



**Hikmət Hacızadə:** "Camaat dərddən içir"



**Əhməd Qəşəmoğlu:** "Açıqlanan statistika yaxşı hal deyil, tədbirlər görülməlidir"

Hesablamalara görə dünya əhalisinin 38 faizi spirtli içki qəbul edir ki, nəticədə içənlərin payına 17 litr xalis spirt düşür. Adam başına düşən alkoqol sərfi Almaniyada 12, Yunanıstanda 9, Kanadada 7, Çində 5, İsveçrədə 11, İsveçdə 6, ABŞ-da 9, İngiltərədə 11, Türkiyədə 1,4 litrdir. Dünya Səhiyyə Təşkilatının 2014-cü ildə yaydığı hesabata əsasən Azərbaycanda bir ildə içilən spirtli içkinin ümumi həcmini əhalinin 15 yaşdan yuxarı olan hissəsi arasında böləndə adambaşına 5,2 litr xalis spirt düşür. Beləliklə, bu fakt ölkəmizin spirtli içki qəbuluna görə ön sıralarda olmasını bir daha təsdiqləyir. Hesabatda o da qeyd edilib ki, Azərbaycanda içilən spirtli içkilərin 28,7 faizi pivədir, 7,6 faizi şərabdır, 63,3 faizi araq və sair tünd spirtli içkilərdir.

Bu məqamda bir faktı da nəzərə çatdıraq ki, "Euromonitor İnternational" Strateji Araşdırmalar Mərkəzinin bu ilin fevral ayında apardığı araşdırmalara görə, dünyada ən çox alkoqol qəbul edən xalq Cənubi Koreya vətəndaşlarıdır. Koreyalılar həftə ərzində orta hesabla 13,7 alkoqol porsiyası qəbul edirlər. İkinci yerdə Rusiya (6,3), üçünü yerdə isə flippinlilər dayanır (5,4). Daha sonra isə sırada Tailand (4,5), Yaponiya (4,4), Bolqarıstan (3,9) və sairə ölkələr yer alır. Alkoqolun bir porsiyasına isə 340 qram turş dərəcəli çaxır və ya 42 qram araq və ya digər yüksək dərəcəli alkoqollu içki daxildir.

Siqaretdən istifadəyə gəldikdə isə Dünya Ağ Ciyər Fondu Amerika Xərçəng Cəmiyyəti bu barədə hesablama apararaq bəyan etmişdi ki, dünyada ən çox siqaret Serbiyada çəkilir. Bu ölkədə ildə adambaşına 2861 siqaret düşür. Siyahıda ikinci yeri isə yenə də Rusiya tutur. Rusiyada bu rəqəm 2786-dır.

Azərbaycanda isə ildə adambaşına 1877 siqaret çəkilir. Ümumilikdə isə ölkədə 3 milyondan çox insan siqaret çəkir ki, onların da 41 faizi 15 yaşından böyük olan kişilər,10 faizi isə qadınlardır.

Maraqlıdır ki, dünyada ən az siqaret çəkilən ölkə Əfqanıstandır. Burada adambaşına ildə cəmi 61 siqaret düşür.

Araşdırmalar da göstərir ki, Azərbaycan içki içib, siqaret çəkməkdə bəzən dünyadakı böyük dövlətləri də üstələyir. Bəs görəsən səbəb nədir? Azərbaycanlılar niyə çox içir, çox siqaret çəkir?

Bəzi ekspertlər bildirirlər ki, bu, insanların ictimai, sosial, psixoloji vəziyyətlərindəki gərginliklə, həyat şəraitlərinin ağır olması ilə bağlı bir məsələdir. Əgər müəyyən təbəqə dinlə məşğul olub bu problemlərin öhdəsindən gəlməyə çalışırsa, əksəriyyət alkoqollu içkilər içməklə mənəvi və maddi əzablarını unutmağa cəhd edirlər.

**Tanınmış politoloq Hikmət Hacızadə** mövzu ilə əlaqədar "Yeni Müsavat"a açıqlama verərək məsələyə qısaca olaraq bu cür mövqe bildirdi: "Camaat dərddən içir. Bəs yaxşı, xalqı dərdli etmisiniz, buna dərman da vermirsiniz, partlayacaq axı?!"

Lakin statistik araşdırmalara da nəzərə yetirəndə şahidi oluruq ki, iqtisadi-siyasi baxımdan inkişaf etmiş, qismən də olsa problem azlığı olan böyük ölkələrdə belə alkoqol düşkünü, siqaret çəkən çoxluq təşkil edir.

**Sosioloq Əhməd Qəşəmoğlu** məsələnin bu tərəfinə toxunaraq bildirdi ki, müəyyən həyat tərzinin təbliğ olunması, insanlarda bir qədər sərbəst həyat tərzinə meylliliyin artması, mənəvi dəyələrlə bağlı aşınmalar xüsusən də spirtli içki içənlərin sayının artmasına səbəb olur:

"İçki içənlərin sayının çoxalması faktı var və bunu təyin etmək çətin deyil. Çünki dövriyyədə nə qədər içkinin satışda olmasını araşdırıb müəyyən etmək mümkündür. Hər halda içkidən çox istifadə edilməni ancaq iqtisadi vəziyyətlə bağlamaq olmaz. Çünki bir çox ölkədə bundan da pis iqtisadi vəziyyət var, lakin bu qədər içki aludəçisi olmur. Azərbaycanın özündə bir neçə on il bundan əvvəl iqtisadi vəziyyət bundan da qat-qat pis olub. Amma bu o demək deyil ki, o vaxt əhali içkiyə bu qədər meylli olub. Müəyyən həyat tərzinin təbliğ olunması, insanlarda bir qədər sərbəst həyat tərzinə meylliyin artması, mənəvi dəyələrlə bağlı aşınmalar bütün bunlara gətirib çıxarır. Digər tərəfdən bu məsələyə psixoloji vəziyyət, ölkədə olan iqtisadi çətinlik də təsir edə bilər. Bunlar da danılmaz bir faktdır. Amma ümumilikdə bu məsələyə birtərəfli yanaşılmasının tərəfdarı deyiləm. Belə bir statistikanın olması yaxşı hal deyil. Konkret olaraq bununla bağlı tədbirlər görülməlidir.

Azərbaycanlıların siqaret, içki asılılığının səbəblərini araşdırmaq üçün bir neçə şəxs arasında kiçik sorğu keçirdik. Bəziləri dərd, fikirdən, bəziləri ətrafının təsiri ilə siqaret çəkdiyini və tərgidə bilmədiklərini, digərləri isə hərbi xidmətdə buna vərdiş etdiyini bildirdilər. Məlum son devalvasiyadan sonra siqaretin qiymətlərinin artması siqaret istifadəçilərinin azalmasına təsir göstərə bilmədi. Bir maraqlı məqamı da qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının *(ÜST)* araşdırmaları zamanı məlum olub ki, daha çox siqaretdən istifadə edənlər təhsil səviyyəsi və gəliri az olan şəxslərdir. Təhsil səviyyəsi yuxarı olan ölkələrdə siqaret istehlakçısı da azdır...

Alkoqolun və siqaretin insan həyatındakı təhlükəsi ilə bağlı uzun illərdir ki, danışılır, təbliğ olunur. Dünya üzrə qeydə alınan ölüm hallarının 5,9 faizi spirtli içkilərə aludəçiliyə görə baş verir, söhbət hər il spirtli içki səbəbindən ölən 3 milyon 300 min adamdan gedir.

**Hər il 5 milyona yaxın adam isə siqaretdən ölür.**

❑ **Xalidə GƏRAY**

# Bakı sakini çəkiclə qətlə yetirildi

**Bakının Qaradağ rayonu, Lökbatan qəsəbəsində yaşayan Viktor Lituxini qətlə yetirməkdə şübhəli bilinən şəxs tutulub.**

"Report" Daxil İşlər Nazirliyinin rəsmi saytına istinadən xəbər verir ki, onu Rövşən Xalıqovun qətlə yetirdiyi məlum olub.

Məlumata görə, Qaradağ rayonunun Lökbatan qəsəbəsində yaşayan Viktor Lituxinin baş nahiyəsində xəsarət olan və qismən çürüməyə məruz qalmış meyiti mənzilində tapılıb.

Araşdırmalar zamanı onun Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Rövşən Xalıqov tərəfindən tamah məqsədilə çəkiclə qətlə yetirilməsi müəyyən edilib.

Qaradağ Rayon Polis İdarəsinin 10-cu Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində R.Xalıqov tutulub.






## Hacıqabulda məscidi yandırdılar

**Hacıqabulun Atbulağ kəndində məscid yanıb. "Qaynarinfo.Az" APA-ya istinadən xəbər verir ki, məscidin qəsdən yandırıldığı iddia edilir. Yanğın hadisəsi gecə yarısı qeydə alınıb. Naməlum səbəbdən alışan məsciddə pəncərə, xalça və dini kitablar yanıb.**

Fövqəladə Hallar Nazirliyinin Hacıqabul yanğından mühafizə xidmətinin hadisə yerinə cəlb olunan texnikası və canlı qüvvəsi yanğının genişlənməsinin qarşısını alıb.

Yanğın lokallaşdırılıb. Yanğının hansı səbəbdən baş verməsi hüquq-mühafizə orqanları və yanğına nəzarət xidməti tərəfindən araşdırılır.

Məscid dindarları iddia edirlər ki, məscid qəsdən yandırılıb.

## Gəncə sakini 3.3 kq narkotiki satarkən tutulub

**Gəncə şəhər sakini külli miqdarda narkotiklə yaxalanıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi və Nizami (Gəncə) RPİ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gəncə şəhər sakini Elşad Həsənov 3 kiloqram 337 qram marixuananı satarkən tutulub.**

## Dəniz sahilindəki köşkdə meyit tapıldı

**İyulun 14-də Pirallahı rayonunda yaşayan Mixail Qlazovun üzərində zorakılıq əlamətləri görünməyən meyiti aşkarlanıb. APA-nın DİN-in saytına istinadən verdiyi xəbərə görə, meyit dəniz sahilində yerləşən köşkdə tapılıb.**

Araşdırma aparılır.

## Bakının mərkəzində "Range Rover" qəza törətdi: ölən var

**Bakıda piyadanın ölümü ilə nəticələnən ağır yol qəzası baş verib. Hadisə Nərimanov rayonu ərazisində qeydə alınıb. Rayonun Polis İdarəsindən ANS PRESS-ə verilən məlumata görə, C.Hacıbəyli küçəsində Bakı şəhər sakini İsmayıl İsmayılov idarə etdiyi "Range Rover" markalı avtomobillə yolu keçən Gürcüstan vətəndaşı Taxar Bayramovu vurub.**

Ağır bədən xəsarətləri alan T.Bayramov hadisə yerində ölüb.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

Son sutka ərzində paytaxda daha iki yol qəzası baş verib. Binəqədi rayonunun Biləcəri qəsəbəsində Xırdalan şəhər sakini Zaur Məmmədov idarə etdiyi "Mercedes" markalı avtomobil yol ayırıcısına çırpılıb. Nəticədə sürücü hadisə yerində ölüb, 2 sərnişini xəstəxanaya yerləşdirilib.

Daha bir qəza isə Qaradağ rayonunun Pirəkəşkül qəsəbəsində qeydə alınıb. Sumqayıt şəhər sakini Zaur Qarayev idarə etdiyi "Samand" markalı avtomobili aşırıb. Z.Qarayevin sərnişini, atası Vahid hadisə yerində ölüb, özü isə xəstəxanaya yerləşdirilib.

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Terrorçuluğun təbliğinə görə azərbaycanlı tutuldu

**Sosial şəbəkədə terrorizmə bəraət qazandıran azərbaycanlı həyatının 2 ilini həbsxanada keçirəcək. ANS PRESS-in məlumatına görə, söhbət Krasnoyarskda yaşayan həmyerlimizdən gedir.**

Ona qarşı "terror aktının həyata keçirilməsinə açıq çağırışlar və ya terrorizmə bəraət qazandırma" maddəsi ilə cinayət işi açılıb. Azərbaycan vətəndaşının cinayət işinə Moskva dairə hərbi məhkəməsi baxır.

Federal Təhlükəsizlik Xidmətinin regional idarəsinin mətbuat xidməti məsələ ilə bağlı bəzi təfərrüatlar yayıb. Məlumata görə, 1996-cı il təvəllüdlü məhkum 2014-cü ilin oktyabrından dekabrınadək sosial şəbəkədə yalnış məlumatlardan istifadə etməklə qeydiyyatdan keçib və radikal islam ideologiyası ilə maraqlanıb. O, internet vasitəsi ilə terrorizmə açıq çağırışlar edib, müxtəlif şərhlər yazaraq, terrorla bağlı materialların yayılmasına səbəb olub.

20 yaşlı azərbaycanlıya qarşı cinayət işi ötən ilin avqustunda qaldırılıb. Onu gözləyən cəzanı nəzərə alan gənc, nəinki, etdiyi əməllərdən peşman olub, eyni zamanda istintaqla yaxından əməkdaşlıq edib.

## Ağsuda hamilə qadın ölüb

**Ağsu rayonunda hamilə qadın dünyasını dəyişib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Qaraqaşlı kəndində qeydə alınıb. Kənd sakini, 1987-ci il təvəllüdlü Mirzəyeva Günel Əlipaşa qızının hamiləliyinin 22-ci həftəsində qəflətən halı pisləşib və onu təcili olaraq Ağsu rayon Mərkəzi Xəstəxanasının doğum şöbəsinə aparıblar.**

Ana bətnindəki 5 aylıq uşağın ölmüş olduğu məlum olub və süni yolla doğuş edərək uşağı götürüblər. Həkimlərin səyinə baxmayaraq ananın da həyatını xilas etmək mümkün olmayıb. Dünyasını dəyişən Günel Mirzəyeva 3 ildir ki, ailəli idi və ilk övladını dünyaya gətirəcəkdi.

Faktla bağlı araşdırma aparılır.

## Bakıda yeni doğulmuş qız uşağı küçəyə atıldı

**Bakıda yeni doğulmuş qız uşağı küçəyə atılıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, iyulun 14-də Xətai rayonunun Gəncə prospekti ev 44-ün girişində yeni doğulmuş qız uşağı tapılıb. Uşaq 1 saylı Körpələr Evinə təhvil verilib.**

## Paytaxt sakininə qarşı 150 min dollarlıq dələduzluq edilib

**Bakı sakininə qarşı 150 min dollarlıq dələduzluq edilib. "Report" xəbər verir ki, paytaxt sakini 36 yaşlı Anar Şərifov hüquq-mühafizə orqanlarına müraciət edərək bildirib ki, 1975-ci il təvəllüdlü Rövşən Əhmədov 2013-cü ilin may ayından bu ilin aprel ayınadək ondan 150 min ABŞ dolları dəyərində taxta alıb, amma pulunu indiyədək ödəməyib.**

Faktla bağlı araşdırma aparılır.

## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**

YENİ MÜSAVAT
N 153 (6474) 16 iyul 2016

# Bakı küləyini elektrik enerjisinə çevirə bilərikmi?

**Bakı küləkli şəhərdir və bu külək bir çox hallarda sakinlərin istirahət arzularına da kölgə salır. Külək, demək olar ki, Bakının turizm imkanlarını da sıfıra endirir. Lakin bütün dünyada külək həm də qazanc mənbəyi hesab olunur. Dünyanın əksər ölkələrində küləkdən enerjinin əldə olunması üçün istifadə olunur. Bakıda, demək olar ki, ilin yarıdan çox küləkli keçir. Bəs, görəsən Bakı və Abşeron yarımadasında alternativ enerji mənbəyi olan külək enerjisi istehsal etmək mümkündürmü?**

## İlham Şaban: "Bütün dünya, Çindən Amerikayacan, Afrikadan Avstraliyayacan külək enerjisindən xeyir götürürsə, biz niyə götürməyək?"





### Telman Zeynalov: "Bakı üçün ən yaxşı enerji mənbəyi tullantılardır"

Aparılan meteroloji tədqiqatlar göstərir ki, Azərbaycan ərazisində əsasən Bakıda, Sumqayıtda, Abşeronda, Binədə, Maştağada külək enerjisindən istifadə etmək məqsədəuyğundur. Azərbaycan ərazisində külək enerjisindən istifadə olunmasının səmərəliliyini müəyyən etmək üçün respublikanın iqlim xüsusiyyətlərini öyrənmək lazımdır. Çünki külək maşınlarının etibarlığı, məhsuldarlığı, iqtisadi səmərəliliyi və s. bilavasitə quraşdırıldığı ərazinin külək rejimindən asılıdır. Azərbaycanın külək rejimi mürəkkəb xarakterə malikdir. Bu da ölkə ərazisinin 60%-nin dağlıq zonalardan ibarət olması ilə ələqədardır. Dağların respublikanın iqliminə və külək rejiminə təsiri böyükdür. Məsələn, Böyük Qafqaz dağları sədd rolunu oynayaraq ölkə ərazisinə şimaldan və şimal-şərqdən soyuq hava kütlələrinin daxil olmasına manea törədir. Soyuq hava kütlələri Böyük Qafqaz dağlarının ətrafından keçərək Abşeron yarımadasından respublika ərazisinə daxil olur. Buna görə də Zaqatalada küləyin orta illik sürəti 1.2 m/san. Abşeronda isə 8.6m/san.-dir.

**Azərbaycan Elmlər Akademiyasının Energetika İnstitutu Respublikanın Meteoroloji stansiyalarında toplanmış bütün flüger müşahidələri materiallarını qruplara ayırıb, rayonların landşaftlarına görə külək sürətlərinin paylanması rejimlərinin aşağıdakı tiplərini müəyyən edib:**

**A** tipli rejim - Abşeronda və Respublikanın şimal sərhədlərində Kür dilinə qədər Xəzərkənarı zonada olan yerlər üçün səciyyəvidir. Bu zonada küləyin orta illik sürəti 4m/san-dən böyük olur.

**B** tipli rejim - Kürkənarı düzənliyində olan yerlər üçün səciyyəvidir. Bu zonada küləyin orta illik sürəti 4m/san-dən 3m/san-dək olur.

**V** tipli rejim - Respublikanın dağ rayonları üçün səciyyəvidir. V zonasında küləyin orta illik sürəti 3m/san-dən kiçik olur. Ona görə də bu zona külək enerjisindən istifadə üçün yararsız hesab edilir.

Külək enerjisindən istifadəyə gəlincə, **ekoloq Telman Zeynalov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bunu ekoloji cəhətdən zərərli hesab edir: "Bakı tarixən küləklər şəhəri olub. Lakin son dövrlərdə küləklərin istiqaməti bir qədər dəyişib. Əgər əvvəllər çox zaman şimal küləkləri əsirdisə, indi daha çox cənub küləkləri əsir. Son dövrlər havanın soyuq keçməsi şimal küləklərinin nəticəsi idi. Lakin indi cənub küləkləri əsir və hava istidir. Bu küləkdən enerji almaq üçün biz gərək bu məsələni ətraflı öyrənək. Hansı hündürlükdə o külək enerjisi avadanlıqları qalxmalıdır, onların pərlərinin uzunluğu nə qədər olmalıdır, küləyin sürəti nə qədər olmalıdır - bütün bunlar hesablanmalıdır. Həmçinin uçan quşların miqrasiya istiqaməti ilə üst-üstə düşməməlidir. Əgər biz o istiqamətləri öyrənməsək, bu köçəri quşların ölümü ilə nəticələnə bilər. Azərbaycan həm də köçəri quşların məskənidir və bu qurğular onların məhvinə də aparıb çıxara bilər. Amerikada külək və günəş enerjisinə bir qədər ehtiyatla yanaşırlar. Bütünlüklə bu iki enerji mənbəyi hesabına tələbatı təmin etmək qeyri-mümkündür, çünki çox baha başa gəlir. Ən əsas səbəb isə odur ki, bu proses biomüxtəlifliyin məhvinə gətirib çıxarır. Bundan başqa həm də küləyin istiqamətini dəyişir, insanlarda dəri xəstəlikləri törədə bilir. Yüksək gərginlik yaranan bu ərazilərdə ev tikmək olmaz. Hər il dünyada bu səbəbdən 12 milyona qədər köçəri quş məhv olur. Onlar bu avadanlıqların səsinə gəlir, sonra isə həmin pərlərə ilişib məhz olub gedirlər. Bakı üçün ən yaxşı enerji mənbəyi tullantılardır".

**Enerji məsələləri üzrə mütəxəssis, Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, külək enerjisindən istifadəni Azərbaycan üçün də effektiv hesab edir: "Bütün dünya, Çindən Amerikayacan, Afrikadan Avstraliyayacan külək enerjisindən xeyir götürürsə, biz niyə götürməyək? Külək enerjisindən istifadənin iqtisadi effektivliyinə gəlincə, bununla dövlət məşğul olmamalıdır. Dövlətin məşğul olduğu yerdə iqtisadi səmərə "Azərişıq" və "Azərenerji"dəki kimi olur, yəni borc içində itib-batırlar. Ona görə də bu sahə özəl sektorda olmalıdır. Qanunlarda da yeni velosiped ixtira etmək lazım deyil. Bütün dünyada 60-cı illərin sonundan külək enerjisi gündəmdədir və kommersiya obyektidir. Ona görə də ötən 40 ildən çox dövrdə bu praktika var. Hər bir kəsə o imkan verilməlidir ki, istehsal edə bilsin. Bu istehsalın ekoloji sağlamlıq, əs-küy və sair baxımından fəsadları olmamalıdır. Bu avadanlıqlar çox güclü səs verir. Ona görə də onları elə yerdə quraşdırmaq lazımdır ki, orada yaxınlıqda yaşayış olmasın. Məsələn, dənizin sahilində, dağın başında və ya təpələrdə, yəni istifadəsiz yerlərdə. Hər bir kəs investisiya qoyub, o avadanlıqları alıb quraşdıra bilər. Öz məqsədləri üçün də istifadə edə bilər, istehlakçılarla danışıb onlara sata da bilər, artıq qaldıqda avtomatik olaraq həmin dövlətin şəbəkəsinə keçməlidir".

**Ekspertin sözlərinə görə, külək enerjisindən adətən bir qəsəbəni və ya bir müəssisənin elektrik enerjisinə tələbatını ödəmək üçün istifadə olunur, yəni bütöv bir şəhəri təmin etmək mümkün deyil:** "Lakin bu külək enerjisini əldə etmək üçün quraşdırılan yel dəyirmanları ucuz deyil. Çoxları elə bilir ki, harada külək əsirsə, bu avadanlıqları quraşdırmaq olar. Ancaq belə deyil. O qurğular limitli diapazonda elektrik enerjisi hasil etmək gücündədirlər. Güclü küləkdə onları avtomatik olaraq dayandırırlar, çünki sıradan çıxa bilər. Bu avadanlıqlar əsasən mülayim küləklə işləyirlər, güclü külək olanda dayanmalıdır, əks halda qəza ola bilər. Ona görə də Abşeron heç də o küləyi elektrik enerjisinə çevirmək üçün əlverişli yer deyil. Onun üçün stabil mülayim olan zona lazımdır. Abşeronda ondan istifadə olunmur, yalnız Ceyranbatanda quraşdırıblar, bir də Onikibarmaq dağının yanında, Qobustanda quraşdırıblar. Bu ərazilər şiddətli küləyin az olduğu yerlərdir".

❑ Nərgiz LİFTİYEVA

# Toy edənlərin sayı azalıb

## Şadlıq evləri qiymətləri artırmasa da, məclislərin azlığından gileylənir

**Azərbaycanda nikaha girənlərin sayı azalıb. Ötən il Azərbaycanda 68773 nikah qeydə alınıb. Bu, son 6 il ərzində nikaha daxil olanların sayında qeydə alınan ən aşağı göstəricidir. Belə ki, 2010-cu ildə Azərbaycanda 79 172 nikah, 2011-ci ildə 88 145 nikah, 2012-ci ildə 79 065 nikah, 2013-cü ildə 86 852 nikah, 2014-cü ildə 84 912 nikah, 2015-ci ildə isə 68 773 nikah qeydə alınıb. Ötən il Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı da son 6 ilin ən aşağı göstəricisi olub. 2010-cu ildə Azərbaycanda əhalinin hər 1000 nəfərinə 8,9 nikah düşdüyü halda, 2015-ci ildə bu rəqəm 7,2 olub. Azərbaycandakı boşanmaların sayında isə nisbətən artım baş verib. 2010-cu ildə Azərbaycanda 9061, 2011-ci ildə 10 747, 2012-ci ildə 11087, 2013-cü ildə 11730, 2014-cü ildə 12 088, 2015-ci ildə 12 764 boşanma olub. Boşanmaların sayında artımın baş verməsinə baxmayaraq, əhalinin hər 1000 nəfərinə düşən nikahların sayına görə olan göstərici əvvəlki illərdə olduğu kimi, yəni 1,3 qalıb.**







Bir çox mütəxəssislər bunu bahalıq, qiymətlərin artması, işsizlik səviyyəsinin yüksəlməsi və evsizlik kimi problemlərlə əlaqəli olduğunu düşünür.

*Maraqlıdır, bahalaşma şadlıq evlərinin də qiymətinə təsir edibmi? Ümumiyyətlə şadlıq evlərində vəziyyət necədi?*

**"Yeganə" şadlıq sarayının administratoru Samir Hüseynov** qiymətləri aşağı saldıqlarını dedi: "Camaatın vəziyyətini nəzərə alıb qiymətlərdə müəyyən endirimlər etmişik. Qiyməti artırsaq kim toy edəcək? Mənim pulum olmasa toy edə bilərəm? Ona görə də bizim məqsədimiz odur ki, qiyməti aşağı salaq, heç olmasa camaat evinə çörəkpulu apara bilsin. Ümumiyyətlə son vaxtlar toylar kəskin şəkildə azalıb. Camaat evlənmir, bunun sonu necə olacaq bilmirəm".

**"Su Sonası" şadlıq sarayının müdiri Mütalib Əhmədov** da qiymətlərdə heç bir dəyişiklik edilmədiyini dedi: "Bizim şadlıq sarayında hər şey əvvəlki qaydada, yüksək səviyyədədir. Toylarımızın sayında da artım var, hər şey yaxşıdır. Heç bir qiymət artımına da getməmişik. Yeri gələndə beş manat aşağı salıram nəinki artırmaq".

**"Xudafərin" şadlıq sarayının administratoru qiymətlərini dəyişməsələr də toyların azaldığını dedi:** "Qiymətlərimiz necə idisə elə də qalıb, heç bir bahalaşmaya getməmişik. Bizdə qiymətlər 2008-ci ildən sonra bir dəfə də olsun dəyişməyib. Bu gün şadlıq evlərində rəqabət çoxdur. Buna görə də qiymətləri dəyişmək mümkün deyil. Dəyişsən işləyə bilməzsən".

**"Oskar" şadlıq sarayının administratoru Rafiq Hümbətov** toyların çox azaldığını dedi: "Qiymət artırmaqla deyil. Camaatda pul yoxdur. Ona görə toy edən də yoxdur. Ona görə də bizdə heç bir qiymət artımı yoxdur".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT

Son səhifə

*N 153 (6474) 16 iyul 2016*

# Qadın facebooka girdi, ərinin evləndiyini öyrəndi

**Dünyanın ən qəribə xəyanət hekayəsi bu cütlüyə məxsusdur. Belə ki, İngiltərədə yaşayan Lisa Kurran 25 ildir evli olduğu həyat yoldaşının başqa bir qadınla evli olduğunu öyrənib. Özü də facebook vasitəsilə. Ərinin açıqlamalarına inanmayan qadın çox keçmədən həqiqəti öyrənib və bütün həyatı alt-üst olub.**

Lisa ərinin həmin qadınla evlənən zaman çəkdirdiyi toy şəkli ilə facebook sosial şəbəkəsində qarşılaşıb. Həyat yoldaşından şəkil haqqında soruşduqda əri ona keçmiş sevgililərindən birinin onu narahat etdiyini və saxta şəkil düzəltdirib facebookda paylaşdığını deyib. Ancaq ərinin sözlərinə inanmayan qadın xəfiyyə tutur. Dedektiv sayəsində Lisa ərinin artıq 6 ildir başqa bir qadınla birgə yaşadığını öyrənib.




Sən demə, keçmiş polis məmuru 52 yaşlı Martin Kurran 31 yaşlı Andrea Viteslə 6 il öncə saxta nikahla evlənib. Aldadıldığı üçün Martini məhkəməyə verən iki uşaq anası Lisa Kurran eyni anda iki qadınla evli olduğu üçün ərinə cəza verilməsini tələb etsə də, məhkəmə kişini günahsız elan edib. Buna etiraz edən Lisa mətbuata açıqlama verərək ərinin həbs olunması gərəkdiyini deyib: “Özümü axmaq kimi hiss edirəm. Məndən başqa hər kəs Martinin necə bir insan olduğunu bilirmiş”.

# Kompüter oyunları uşaqları qəddarlaşdırır




**Uşaqları qəddarlaşdıran daha çox atışma, davalarla, döyüş səhnələri ilə zəngin oyunlardır.**

Ayova Dövlət Universitetinin (Iowa State University) apardığı araşdırmalar göstərib ki, aqressiv kompüter oyunları oynayan uşaqlar, yeniyetmələr qəddarlığa, cəmiyyətdən uzaqlaşmağa meyllidirlər. Araşdırmada 8-17 yaşlı uşaq və yeniyetmələr iştirak edib. Kompüter oyunlarına aludə olan bu uşaqların davranışlarını 3 il ərzində müşahidə ediblər.

Nəticələr göstərib ki, kompüter oyunları oynamağa davam edən uşaqlar getdikcə daha aqressiv, acıqlı olur. Bu uşaqlar yaşıdlarını incidir, mübahisələri neqativ qarşılayırlar. Onlar mübahisə zamanı daha əsəbi davranır, qarşısındakını itələyir, söyüş söyür. Araşdırma aparanlardan Kreyq Anderson (Craig Anderson) deyib: “Həmişə aqressiv oyunlar oynayan uşaqlar böyüdükcə dəyişir, hər-hansı məsələni qəddar üsulla həll etməyi üstün tuturlar və bunun normal, əsaslı olduğunu deyirlər”.

Oyunları həvəsi azalan uşaqlar isə 3 il ərzində sakitləşib, daha yumşaq davranırlar.

Mütəxəssislər bildirirblər ki, valideynlər uşaqların oyunlarına diqqət etməli, insan ələqələrinə əsaslanan, uşaqları yaradıcılığa cəlb edən oyunlar seçməlidirlər.




# Dünyanın ən bahalı boşanması

**ABŞ-ın və dünyanın ən zəngin iş adamlarından biri, neft maqnatı Harold Hemm arvadını itirsə də, dünyanın ən bahalı boşanmasını gerçəkləşdirmiş adam kimi tarixə düşüb. Oklahoma ştatının məhkəməsinin qərarı ilə multimilyarder ondan boşanan arvadı Syu Enn Ernalla 995,5 milyon dollar məbləğində təzminat ödəməlidir. “Continental Resources” neft-qaz korporasiyasının banisi və sahibi, dünyanın ən varlı adamlarından birinin arvadına ödəməli olduğu 995,5 milyon dolların 1/3 hissəsi ötən ilin sonunadək Syu Enn Arnalla çatmalıydı. Hemm yerdə qalan məbləği ayda ən azı 7 milyon dollar olmaqla ödəməlidir. Hemmin məbləği vaxtında ödəyəcəyinə əmin olmaq üçün məhkəmə “Continental Resources” korporasiyasının 200 milyon dollarlıq səhmlərini girov götürüb.**

2012-ci ildə Harold Hemmin ona xəyanət etdiyini aşkarlayan Syu Enn Arnall o vaxtdan bəri təzminat qismində 25 milyon dollar alıb. Dünən Harold Hemmin vəkilləri apellyasiya iddiası qaldırıblar və təzminatın məbləğini azaltmağa çalışıblar. Lakin Syu Enn Arnall ərinin ona ünvanladığı $ 974800000 dollarlıq bank çekindən imtina edib.

O, vəkillərinə yeni prosesə başlamağı tapşırıb. Xəyanətə məruz qalan və boşanan Syu Enn Ernall indi ərindən təzminat qismində 18 milyard dollar tələb edir. Boşanma prosesi əsnasında Syu Enn ərindən Kaliforniyada yerləşən 14,7 milyon dollarlıq rançonu, habelə Oklahomada olan 4,6 milyon və 800 min dollarlıq iki villanı alıb.




**QOÇ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Coca Colaya görə özünü “məhv etdi”




**Los Anceles sakini Corc Prior bir ay ərzində on banka “Coca Cola” içkisi içib. O, bununla həmin içkinin səhhətinə necə təsir göstərəcyini ölçmək istəyib. Bu barədə lenta.ru saytı “The Daily Mirror”a istinadən xəbər verir. 50 yaşlı kişi bildirib ki, onu xüsusən də sözügedən içkinin tərkibindəki şəkər dozasının orqanizmə göstərdiyi təsir maraqlandırır. Eksperimentin sonlarına yaxın Prior qeyd edib ki, 76 kilodan 86 kiloya qədər kökəlib. Kişinin arterial təzyiqi isə 129/77-dən 145/96-ya qədər yüksəlib. Qeyd edilir bu göstəricilər normadan yüksəkdir. Bunların ucbatından insanlarda ciddi ürək xəstəlikləri və insult riski yüksəlir. Piror qeyd edib ki, bir müddət keçəndən sonra onda həmin içkiyə qarşı ciddi asılılıq yaranıb. Bundan başqa, “nəsə şirin bir şeylər yemək” ehtiyacı da get-gedə artıb. O, daha öncə belə hal yaşamadığını qeyd edir. Bununla yanaşı, amerikalı qeyd edib ki, o bu təcrübə ilə insanları yedikləri şəkərin onlara nə qədər ziyan vurması barədə düşünməyə sövq etmək istəyib. 100 qram miqdarındakı “Coca Cola”da 10.2 qram şəkərdir. Kampaniyanı bir neçə dəfə tərkibində çox şəkər olduğuna görə ittiham ediblər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750